HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 20 (710) ■ 28 may 2014 www.vergiler.az Qiymәti: 40 qәp.

# 28 May - Respublika Günüdür

## *Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir*

**1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olmuşdur.**



Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir. 1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən - «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirmişdir.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoymuşdur.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi - 28 mayı Respublika Günü kimi qeyd edir.

Mayın 27-də Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni ziyarət etmişdir. Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdür. Dövlətimizin başçısı abidənin önünə əklil qoymuşdur. Azərbaycan Respublikasının dövlət himni səsləndirilmişdir.

# Dövlətimizin başçısı Respublika Günü münasibətilə keçirilmiş tədbirdə iştirak etmişdir

***Mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilmişdir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak etmişlər. Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşılamışlar. Azərbaycanın dövlət himni səsləndirilmişdir. Prezident İlham Əliyev rəsmi qəbulda nitq söyləmişdir.

Sonra Dövlət mükafatlarının təqdim edilməsi mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2014-cü il üçün elm, mədəniyyət və ədəbiyyat sahələrində Azərbaycan Respublikasının Dövlət mükafatları milli təsviri sənətin inkişafında xidmətlərinə görə Oqtay Sadıxzadəyə, konsert-ifaçılıq fəaliyyətinə görə Ramiz Quliyevə, «Hidrogen peroksidlə koherent-sinxronlaşmış oksidləşmə reaksiyaları» monoqrafiyasına görə Tofiq Nağıyevə və «Heydər Əliyev. Şəxsiyyət və zaman» altıcildlik roman-tədqiqatına görə Elmira Axundovaya təqdim edilmişdir.

Daha sonra Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etmişlər.

# Türkiyənin daxili işlər naziri Prezident İlham Əliyevin qəbulunda olmuşdur

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikasının daxili işlər naziri Efkan Alanı qəbul etmişdir.***

Efkan Alanı Türkiyə Respublikasının daxili işlər naziri təyin olunması münasibətilə təbrik edən dövlətimizin başçısı ölkələrimizin güc strukturları arasında mövcud sıx əməkdaşlığın bundan sonra da genişləndiriləcəyinə ümidvar olduğunu bildirmişdir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, nazirlərin ilk xarici səfərinin qardaş ölkələrə etməsinin artıq bir ənənə halı aldığını vurğulayan Prezident İlham Əliyev Efkan Alanın Türkiyə Respublikasının daxili işlər naziri kimi Azərbaycana ilk səfərinin önəmini qeyd etmiş və bunun əməkdaşlığımızın inkişafı ilə bağlı səmərəli müzakirələr aparılması üçün yaxşı fürsət yaratdığını demişdir.

Efkan Ala nazir kimi ilk xarici səfərini Azərbaycana etməsindən məmnunluğunu diqqətə çatdırmışdır. Türkiyənin daxili işlər naziri Soma kömür mədənində kütləvi insan tələfatı ilə nəticələnən faciə ilə əlaqədar Azərbaycan xalqının, şəxsən Prezident İlham Əliyevin Türkiyə xalqının dərdinə şərik çıxmasına görə minnətdarlığını bildirmişdir.

# Azərbaycan Prezidenti beynəlxalq qida sənayesi və kənd təsərrüfatı sərgiləri ilə tanış olmuşdur

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Bakı Sərgi Mərkəzində «World Food Azerbaijan-2014» XX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan-2014» VIII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olmuşdur.*



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə reallaşdırılan sosial-iqtisadi siyasət qeyri-neft sektorunun inkişafını tamamilə yeni mərhələyə çıxarmışdır. Bu sektorun əsas sahələrindən olan aqrar bölmənin inkişafı respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasına, əhalinin rifahının yüksəlməsinə önəmli töhfə verir. Qida sənayesində ən son texnologiyaların tətbiqi bu sahənin inkişafı, istehsal olunan məhsulların keyfiyyəti və rəqabətə davamlılığı baxımından çox mühümdür. Bu baxımdan, ölkəmizdə təşkil olunan «World Food Azerbaijan-2014» XX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan-2014» VIII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri böyük əhəmiyyət kəsb edir. Həmin sərgilər ölkəmizdə bu sahədə əldə edilən nailiyyətləri nümayiş etdirməyə imkan yaradır və aqrar sahənin inkişafına müsbət təsir göstərir.

Bu il özünün 20 illik yubileyini qeyd edən «World Food Azerbaijan» Beynəlxalq qida sənayesi sərgisi ötən dövrdə qida məhsulları bazarında həm yerli, həm də xarici istehsalçılar üçün istiqamətləndirici funksiyanı yerinə yetirmişdir. Ötən müddətdə bu istiqamətdə mühüm nailiyyətlər əldə olunmuşdur. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilən «World Food Azerbaijan-2014» XX Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan-2014» VIII Beynəlxalq kənd təsərrüfatı sərgilərinin təşkilatçıları qismində «Iteca Caspian» MMC və onun Böyük Britaniyadan olan tərəfdaşı «ITE Group Plc» şirkəti çıxış edir.

Sərgi 20 illik yubileyini rekord sayda iştirakçı şirkətlə qarşılayır. İlk dəfədir ki, sərgidə dünyanın 36 ölkəsindən nümayəndələr iştirak etmişlər. İştirakçıların sayına görə liderlik edən ölkə Türkiyədir. Sərgi hər il yeni iştirakçıları cəlb edir. Belə ki, bu ilin debütantları, o cümlədən Azərbaycan, Niderland, Belçika, Türkiyə, İtaliya, İspaniya, İran və digər ölkələrdən gələn şirkətlər ümumi iştirakçıların 45 faizini təşkil edir. Dövlət dəstəyi və peşəkar assosiasiyaların əlaqələndirilməsi çərçivəsində təşkil olunan milli ekspozisiyalarla altı ölkə - İtaliya, İran, Niderland, Macarıstan, Latviya və Estoniya çıxış edir. Milli stendlərin bu cür fəal iştirakı «World Food Azerbaijan» sərgisinin beynəlxalq qida məhsulları bazarındakı nüfuzunu bir daha təsdiq edir.

Builki sərgidə iştirakçıların sayının 26 faizini təşkil edən yerli istehsalçılar və distribüterlər də böyük fəallıq göstərir. Qida sənayesinin inkişaf etdirilməsində regionlara daha çox önəm verilir. Regionlarda ən yeni avadanlıq və istehsal texnologiyalarının tətbiqini təmin etmək məqsədilə «World Food Azerbaijan» və «Agrihort Azerbaijan» sərgilərində Bərdə, Qəbələ, Gəncə, Lənkəran, Saatlı, Sabirabad, Xaçmaz və digər rayonlardan sahibkarlar üçün infoturlar təşkil edilmişdir. Ümumilikdə, iştirakçılar öz məhsullarını üç əsas istiqamətdə nümayiş etdirir.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, sərgidə dünyanın 35 ölkəsindən 173 şirkət iştirak edir. Bu siyahıda MDB və Avropa ölkələrindən gələn şirkətlər üstünlük təşkil edir. Artıq 20 ildir ki, keçirilən «World Food Azerbaijan» sərgisi qida sənayesinin peşəkarları, eləcə də ərzaq məhsulları və istehlak mallarını istehsal, ixrac və idxal edən şirkətlər üçün səmərəli iş meydanı kimi fəaliyyət göstərir. Sərgi qida sənayesinin bir neçə istiqamətini - avadanlıq, qida məhsulları və qablaşdırma kimi sahələri bir məkanda toplayaraq sənaye peşəkarlarının geniş spektrini əhatə edir. Burada ət və quş, süd məhsulları, dondurma, konservləşdirilmiş məhsullar, şirniyyat və çörək məmulatları, o cümlədən kənd təsərrüfatı və quşçuluq fabrikləri üçün avadanlıq, habelə istixanalar, suvarma sistemləri, toxumlar, gübrələr və s. məhsullar nümayiş olunur.

Prezident İlham Əliyev «Azərtoxum» MMC-nin stendi ilə tanış olmuşdur. Bildirilmişdir ki, 2009-cu ildə təsis edilən şirkət fermerləri yüksək keyfiyyətli və məhsuldar toxumlarla təmin edir. Şirkət Azərbaycanda hazırlanan və həyata keçirilən qida təhlükəsizliyi strategiyasına uyğun satılan toxumlar üzrə texniki yardım xidmətləri göstərir. Şirkətin qarşısına qoyduğu əsas məqsəd seçilmiş toxumlar üzrə öz texnologiyasını hazırlamaq və həmin məhsullarla dünya bazarına daxil olmaqdır. 2005-ci ildə yaradılan «Grand Motors» MMC Azərbaycan bazarının tikinti, kənd təsərrüfatı, istirahət və əyləncə sektorunu əhatə edir. Şirkət ağır texnika və yük avtomobillərinin Azərbaycana idxalını və satışını həyata keçirir. Hazırda bu şirkət dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir.

Azərbaycan Prezidenti İspaniyanın «İnvernaderos El Pilar» şirkətinin stendinə də baxmışdır. Şirkət istixanaların layihələndirilməsi, quraşdırılması və tam təhvili üzrə fəaliyyət göstərir. Bundan başqa, kənd təsərrüfatı istehsalçıları şirkətin istixana texnologiyaları, həmçinin suvarma, isitmə, iqlim və avtomatlaşdırma sistemləri xidmətindən də istifadə edə bilər. Dövlətimizin başçısı «Amkodor Baku» MMC-nin stendi ilə də tanış olmuşdur. Qeyd olunmuşdur ki, ötən ilin dekabrında yaradılan Belarus şirkəti 100-dən artıq müxtəlif texnika istehsal edir. Şirkətin istehsal etdiyi və nadirliyi ilə seçilən texnikası dünyanın 30-dan artıq ölkəsinə ixrac olunur.

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının «John Deere» şirkətinin məhsullarına da baxmışdır. Artıq 200 ildən çoxdur ki, fəaliyyət göstərən və bütün dünyada böyük nüfuza malik şirkət sərgidə iştiraka mühüm önəm verir.

«World Food Azerbaijan-2014» sərgisi ilə paralel olaraq keçirilən «Agrihort Azerbaijan-2014» VIII Beynəlxalq kənd təsərrüfatı sərgisi hər il aqrar kompleksin aparıcı nümayəndələrini, eləcə də kənd təsərrüfatı məhsullarının istehsalçı və təchizatçılarını bir araya gətirir. Builki sərginin əsas fərqləndirici xüsusiyyəti isə kənd təsərrüfatı texnikasına həsr olunmuş ekspozisiya sahəsinin ötən illə müqayisədə 2,5 dəfə genişlənməsidir. Bu sahə Bakı Sərgi Mərkəzinin həm daxilində, həm də açıq meydançada təşkil edilmişdir.

Prezident İlham Əliyev açıq meydançada nümayiş olunan kənd təsərrüfatı texnikası ilə tanış olmuşdur.

2 | Azərbaycan «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Konvensiyaya edilmiş dəyişikliklərə qoşulmuşdur

3 | Qanunvericiliyə dəyişikliklər bələdiyyələrin fəaliyyətində şəffaflığı gücləndirəcək

4 | Vergi ödəyicilərinin mənafeləri qorunur

5 | Vergi daxilolmalarının artımı davamlı iqtisadi inkişafa təkan verir

# Azərbaycan «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Konvensiyaya edilmiş dəyişikliklərə qoşulmuşdur

*Mayın 22-23-də Azərbaycan Respublikasının vergilər naziri Fazil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Fransada işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində vergilər naziri İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Parisdə yerləşən mənzil-qərargahında baş katib Anxel Qurria ilə görüşmüşdür. Görüşdən əvvəl Azərbaycanla İƏİT arasında «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Konvensiyaya edilmiş dəyişikliklərə qoşulması haqqında protokolun imzalanma mərasimi olmuşdur. Sənədi vergilər naziri Fazil Məmmədov və baş katib Anxel Qurria imzalamışlar.*



Sonra İƏİT ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi arasında əlaqələri daha da genişləndirmək barədə geniş tərkibdə müzakirələr aparılmışdır.

Azərbaycandan olan nazirlə ilk dəfə görüşdüyünü qeyd edən İƏİT-in baş katibi bundan məmnun olduğunu, rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında əlaqələrin inkişafını müsbət qiymətləndirdiyini ifadə etmiş, Azərbaycan Respublikasının konvensiyaya edilmiş dəyişikliklərə dair protokola qoşulmasını mühüm hadisə adlandırmış, bu mənada ölkə rəhbərliyinin göstərdiyi siyasi iradəni həlledici amil kimi dəyərləndirərək bu faktın Azərbaycanın vergi sisteminin şəffaflığının göstəricisi olduğunu bildirmişdir.

A.Qurria təşkilatın baş katibinin müavini İv Letermin Azərbaycanda keçirilən İkinci Qlobal Açıq Cəmiyyətlər Forumunda iştirakı zamanı Prezident İlham Əliyev tərəfindən qəbul olunduğunu xatırladaraq həmin görüşdə konkret sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə edildiyini diqqətə çatdırmışdır.

Vergilər naziri Fazil Məmmədov Prezident İlham Əliyevin və Azərbaycan hökumətinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə əlaqələrə xüsusi önəm verdiklərini qeyd edərək, Vergilər Nazirliyinin əməkdaşlarının İƏİT-in keçirdiyi tədbirlərdə yaxından iştirak etdiklərini bildirmişdir. Nazir İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə Azərbaycan Respublikası Vergilər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş layihəsinin müzakirələrinin davam etdiyini diqqətə çatdırmışdır. A.Qurria bunun gələcək əməkdaşlıq üçün gözəl bir proqram olacağını qeyd etmişdir.

Əməkdaşlığın müxtəlif istiqamətləri üzrə ətraflı müzakirələrin aparıldığı görüşdə F.Məmmədov cənab A.Qurrianı Azərbaycana səfərə dəvət etmişdir.

Azərbaycanın vergilər naziri Fazil Məmmədov Fransaya işgüzar səfəri çərçivəsində bir sıra digər mühüm görüşlər də keçirmişdir. Fransanın büdcəyə məsul dövlət katibi Kristian Ekerlə görüşdə azərbaycanlı iş adamlarına



Fransada və fransalı investorlara ölkəmizdə əlverişli şəraitin yaradılması məsələləri diqqət mərkəzində olmuşdur. Nazir Kristian Eker ölkəsinin bu sahədə Azərbaycana hərtərəfli yardım göstərməyə hazır olduğunu bildirmişdir.

Vergilər naziri Fazil Məmmədov Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın çox sürətlə inkişaf etdiyi, ölkəmizdəki vergi sistemi və burada aparılan islahatlar barədə ətraflı məlumat vermişdir. Azərbaycanın vergi sistemindəki qabaqcıl və müsbət təcrübələrdən bəhs edən F.Məmmədov bu sahədə vergi ödəyicilərinə göstərilən elektron xidmətlərdən, ƏDV depozit hesabı və həyata keçirilmiş digər layihələrdən danışmışdır.

Vergilər naziri hər iki tərəf üçün xüsusi maraq doğuran Avropa İttifaqının Azərbaycana yardımı çərçivəsində yeni tvinninq layihəsinin həyata keçirildiyini vurğulamış, bu layihə ilə bağlı elan olunan tenderdə birgə iştirak edən Fransa və İspaniyanın vergi administrasiyalarının qalib gəldiyini bildirmişdir. Azərbaycanın vergi administrasiyası üçün kadr potensialının inkişafında Fransanın dəstəyinin vacibliyini vurğulayan F.Məmmədov bu məsələnin ölkəmiz üçün çox önəmli olduğunu diqqətə çatdırmışdır. Fransanın vergi orqanlarının elektron audit sahəsində müsbət təcrübələrini vurğulayan nazir Azərbaycanın vergi orqanlarında çalışan əməkdaşların Fransada uzunmüddətli təcrübə keçməsi təklifini irəli sürmüşdür.

Fransalı nazir bu təklifi məmnuniyyətlə qəbul edərək məsələ ilə bağlı dərhal baş direktora xüsusi tapşırıq verəcəyini, tvinninq layihəsini həyata keçirməkdə ölkəmizə hər cür dəstək göstərməyə hazır olduqlarını qeyd etmişdir.

Azərbaycan qanunvericiliyində bank məlumatlarının mübadiləsi və şəffaflığın təmin edilməsi sahəsində artıq müvafiq dəyişikliklər edildiyini bildirən vergilər naziri səfər çərçivəsində bank məlumatlarının mübadiləsi ilə bağlı Strasburq Konvensiyasına edilmiş dəyişiklikləri özündə əks etdirən Protokolun imzalanacağını da diqqətə çatdırmışdır.

Fransalı nazir bu xəbəri böyük məmnuniyyətlə qarşılamış, digər ölkələrin də Azərbaycanın yolu ilə gedərək bu mühüm sənədi imzalamaqla vergi orqanları arasında məlumat, o cümlədən bank məlumatları mübadiləsinin daha da genişləndiriləcəyini, öz növbəsində, bunun vergi daxilolmalarının artmasına və vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin olunmasına müsbət təsir göstərəcəyini qeyd etmişdir.

Görüşün sonunda F.Məmmədov Fransanın büdcə nazirini ölkəmizə səfərə dəvət etmişdir. Dəvətə görə təşəkkürünü bildirən cənab K.Eker imkan olan kimi bu dəvəti reallaşdıracağını bildirmişdir.

## Güləş Federasiyasının prezidenti Fazil Məmmədov Parisdə fransalı həmkarı ilə görüşmüşdür



Fransada işgüzar səfərdə olan Azərbaycan Respublikasının vergilər naziri, Güləş Federasiyasının prezidenti Fazil Məmmədovun Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində fransalı həmkarı Alen Bertholonla görüşü zamanı Fransa Güləş Federasiyasının prezidenti 2015-ci ildə ölkəmizdə keçiriləcək Avropa Oyunlarına böyük maraq göstərdiklərini və bu oyunların Fransada daha geniş təbliği üçün cari ilin dekabrında Fransada Azərbaycan güləşçilərinin iştirakı ilə bir yarış təşkil etmək niyyətində olduqlarını bildirmişdir.

Bu təklifi böyük məmnuniyyətlə qəbul edən F.Məmmədov yarışın hər iki federasiyanın təşkilatçılığı ilə keçirilməsi üçün bütün tədbirlərin görüləcəyini bildirmiş, əlavə olaraq Avropa Oyunları ərəfəsində fransalı güləşçilərin ölkəmizdə azərbaycanlı həmkarları ilə birlikdə təlim-məşq toplantısında iştirakı və beləliklə də Fransa güləşçilərinin yerli şəraitə daha tez adaptasiya olunmaları üçün hər cür şərait yaratmağa hazır olduqlarını bildirmişdir.

Tərəflər Bakıda keçiriləcək ilk Avropa Oyunlarının birgə təbliği istiqamətində görüləcək işlər barədə ümumi razılığa gəlmişlər.

## Bakıda IOTA İcraiyyə Şurasının 92-ci iclası



Mayın 26-da işə başlamış iclası giriş sözü ilə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) prezidenti, Serbiya Vergi Administrasiyasının baş direktoru Liliyana Kovaçeviç açmış, gündəlikdə duran məsələlərlə bağlı tədbir iştirakçılarını məlumatlandırmışdır.

Qeyd edilmişdir ki, Bakıda keçirilən tədbirdə IOTA-nın təşkilati-inzibati məsələləri, eləcə də qurumun növbəti Baş Assambleyasına hazırlıq işləri müzakirə ediləcəkdir.

Tədbir iştirakçılarını salamlayan vergilər nazirinin müavini Sahib Ələkbərov Azərbaycan Respublikası Vergilər Nazirliyinin dünyada mövcud olan ən uğurlu təcrübələrin Azərbaycanda tətbiq olunmasına xüsusi diqqət yetirdiyini, bu baxımdan, IOTA-nın son dərəcə səmərəli bir platforma olduğunu vurğulayaraq, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatının yüksək templərlə inkişafı, ölkəmizin vergi sistemində son illər aparılan islahatlar barədə qonaqlara məlumat vermiş və İcraiyyə Şurasının işinə uğurlar arzulamışdır.

İki gün davam edən iclasda IOTA-nın informasiya platforması hazırlanmış, 2013-cü ildə təşkilatın texniki və maliyyə hesabatları, qarşıdakı il üçün maliyyə büdcəsi, qurumun qarşısında duran bir sıra digər aktual məsələlər müzakirə edilmişdir.

## Amerika Birləşmiş Ştatlarının Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (FATCA) ilə bağlı razılıq əldə edilmişdir

*Qısa olaraq FATCA adlandırılan Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act) ABŞ Konqresi tərəfindən 18 mart 2010-cu il tarixində qəbul edilmiş və 1 yanvar 2013-cü il tarixindən qüvvəyə minmişdir. Bu Akt ABŞ vətəndaşları və digər vergi ödəyicilərindən onların başqa dövlətlərdə olan maliyyə hesabları haqqında, xarici maliyyə institutlarından özlərinin bu cür müştəriləri haqqında məlumatların ABŞ-ın Daxili Gəlirlər İdarəsinə (İRS) açıqlanmasını tələb edir. FATCA-nın əsas məqsədi ABŞ vergi ödəyiciləri tərəfindən vergidən yayınmaya qarşı mübarizə və federal vergi gəlirlərinin artırılmasıdır.*

FATCA-ya əsasən, ABŞ vergi ödəyiciləri hesab olunan şəxslər xarici hesabları və digər maliyyə aktivləri barədə məlumatları ABŞ vergi bəyannaməsi ilə birlikdə İRS-ə təqdim etməlidir.Banklar da daxil olmaqla, xarici maliyyə institutları isə ABŞ Daxili Gəlirlər İdarəsinə (İRS) onlarda hesab açmış ABŞ vergi mükəlləfləri barədə məlumatları, o cümlədən onların adları, vergi identifikasiya nömrələri, ünvanları, hesab qalıqları, hesaba daxil olan və hesabdan çıxan ödənişlər barədə məlumatları verməlidirlər. İstənilən dövlətin qanunun tələblərinə əməl etməyən, yəni İRS ilə əməkdaşlıq etməyən maliyyə institutlarını 2014-cü ilin 1 iyul tarixindən başlayaraq ciddi sanksiyalar gözləyir: ABŞ-dakı və FATCA-ya əməl etmək öhdəliyini qəbul etmiş digər dövlətlərdəki maliyyə institutlarında olan müxbir hesablar vasitəsilə edilən ödənişlərdən müxbir hesabın yerləşdiyi maliyyə institutu tərəfindən ödəmə mənbəyində 30% vergi tutularaq İRS-yə köçürülməlidir.

Bütün dünyada ABŞ dolları ilə həyata keçirilən ödənişlərin böyük əksəriyyəti ABŞ-da yerləşən banklardakı müxbir hesablar vasitəsilə həyata keçirildiyindən ABŞ-ın əməkdaşlıq etməyən istənilən xarici maliyyə institutuna qarşı qanunda nəzərdə tutulmuş cəza tədbirlərini tətbiq etmək üçün real imkanları vardır.

FATCA qəbul edildikdən sonra bir çox dövlətlərin daxili qanunvericilikləri öz banklarına və digər maliyyə institutlarına məlumatları xarici dövlətdə qəbul edilmiş qanun əsasında ötürməyə imkan vermir. Buna görə də ABŞ Xəzinədarlıq Departamenti və İRS tərəfindən FATCA-nın tətbiqi üçün digər dövlətlərlə hökumətlərarası sazişlərin bağlanması yolu ilə məlumatların alınması variantı da qəbul edilmiş və təklif olunan hökumətlərarası sazişin iki modeli hazırlanmışdır.

1-ci model məlumatların maliyyə institutları tərəfindən İRS-yə deyil, öz dövlətlərinin səlahiyyətli orqanına, həmin orqan tərəfindən isə İRS-yə ötürülməsini nəzərdə tutur. Bu modelin isə Model 1A və Model 1B adlanan iki forması vardır. 1A Modelinə uyğun bağlanmış sazişlərə əsasən, ABŞ və digər dövlət arasında qarşılıqlı məlumat mübadiləsi həyata keçirilir, yəni ABŞ tərəfi də eyni qaydada digər dövlətin vergi ödəyicilərinin ABŞ maliyyə institutlarında olan hesabları barədə məlumatları həmin dövlətin səlahiyyətli orqanına təqdim edir. 1B Modeli əsasında bağlanmış sazişlərə əsasən isə məlumatlar yalnız həmin dövlət tərəfindən ABŞ-a ötürülür.

Hökumətlərarası Sazişin 2-ci Modeli məlumatların maliyyə institutlarının özləri tərəfindən İRS-nin elektron portalında qeydiyyatdan keçməklə birbaşa İRS-yə təqdim edilməsini nəzərdə tutur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 103s nömrəli sərəncamı ilə FATCA-nın tətbiqi məqsədi ilə ABŞ hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında FATCA tələblərinin həyata keçirilməsi barədə hökumətlərarası sazişin bağlanması məqbul hesab edilmişdir. Həmin sərəncamla bağlanması nəzərdə tutulan hökumətlərarası sazişin modeli kimi mümkün olan ən əlverişli model, yəni dövlətlər arasında qarşılıqlı məlumat mübadiləsini nəzərdə tutan 1A Modeli, məlumat mübadiləsinin aparılması məqsədi ilə səlahiyyətli orqan qismində isə Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmişdir.

Hökumətlərarası saziş layihəsinin mətninin razılaşdırılması məqsədi ilə Nazirlər Kabinetinin eyni sərəncamı ilə komissiya yaradılmışdır və komissiya tərəfindən hökumətlərarası saziş layihəsinin ilkin mətni üzrə diplomatik kanallar vasitəsilə ABŞ tərəfi ilə aparılmış müzakirələr nəticəsində hökumətlərarası saziş layihəsi üzrə mövcud modellərdən ən üstünü olan 1A Modeli əsasında ümumi razılıq əldə edilərək, 16 may 2014-cü il tarixdə Azərbaycan Respublikası tərəfdaşlıq edən ölkələr siyahısına daxil edilmişdir (http://www.treasury.gov/resource-center/tax-policy/treaties/pages/fatca-archive.aspx).

Azərbaycan Respublikasının tərəfdaşlıq edən ölkələr siyahısına daxil edilməsi nəticəsində Azərbaycanın maliyyə institutları üçün İRS-nin portalında qeydiyyatdan keçməyin son müddəti 5 may 2014-cü il tarixindən 31 dekabr 2014-cü il tarixinədək uzadılmışdır. Bundan əlavə, Azərbaycan maliyyə institutlarının 1 iyul 2014-cü il tarixindən başlayaraq tətbiq ediləcək sanksiyaların təsiri altına düşməyəcəyi birmənalı olaraq təmin edilmişdir.

Ümumilikdə mahiyyəti üzrə razılıq əldə edilmiş hökumətlərarası sazişin yekun mətninin hazırlanması, onun imzalanması ilə bağlı dövlətdaxili prosedurların həyata keçirilməsi və 31 dekabr 2014-cü il tarixinədək imzalanması təmin edildikdən sonra tərəflərin səlahiyyətli orqanları arasında məlumat mübadiləsinin praktiki təşkilinin formatını, konfidensiallığın qorunmasını və digər məsələləri tənzimləyən əlavə razılaşma imzalanacaqdır.

# Qanunvericiliyə dəyişikliklər bələdiyyələrin fəaliyyətində şəffaflığı gücləndirəcək



*Milli Məclisin Regional məsələlər komitəsinin bu günlərdə keçirilmiş iclasında bələdiyyə qanunvericiliyinə bir sıra əlavə və dəyişikliklərin edilməsi ilə bağlı təkliflər hazırlanaraq plenar iclasın müzakirəsinə tövsiyə edilib. Milli Məclisin deputatı Tahir Rzayev qəzetimizə müsahibəsində yeniliklər barədə ətraflı məlumat vermişdir.*

***- Tahir müəllim, Milli Məclisin Regional məsələlər daimi komitəsinin üzvü kimi bələdiyyələrin 15 illik fəaliyyətini necə dəyərləndirirsiniz?***

- Yerli özünüidarəetmə orqanının - bələdiyyələrin yaradılması və onların fəaliyyətinin istiqamətləndirilməsi hər bir demokratik cəmiyyət üçün vacib əhəmiyyət kəsb edən məsələlərdəndir. Bələdiyyələr məhəlli xarakterli problemlərin müəyyənləşdirilməsi və həllində iştirak edən müstəqil və kollegial qurumlardır. Onların fəaliyyəti həm icra strukturlarının işini yüngülləşdirir, həm də vətəndaşlara yerli xarakterli məsələlərin həllində təşəbbüskarlıq göstərmək, cəmiyyətdə öz rolunu düzgün dərk etmək imkanı yaradır.

Bu ilin dekabrında Azərbaycanda bələdiyyə institutunun yaradılmasının 15-ci ildönümü tamam olacaq. 1999-cu ildə keçirilmiş ilk seçkilərdən ötən müddətdə bələdiyyələr müəyyən inkişaf yolu keçərək təşkilatlanıb və cəmiyyətdə özlərini təsdiqləməyə nail olublar. Etiraf etməliyik ki, ilk illərdə bələdiyyələrin fəaliyyətində müəyyən intizamsızlıq, səriştəsizlik, hətta qanunsuzluq hökm sürürdü. Bələdiyyələrlə icra strukturları arasında müəyyən ziddiyyətlərə, çəkişmələrə rast gəlinirdi. Yerli özünüidarəetmə orqanları bələdiyyə qanunvericiliyinə riayət etmir, əhali ilə münasibətlərini düzgün qura bilmirdilər.

Ötən illərlə müqayisədə problemlərin böyük qismi aradan qaldırılıb. Son illərdə 1100-dən çox xırda bələdiyyənin birləşdirilməsi onların fəaliyyətində səmərəliliyi, çevikliyi təmin edib. Bundan başqa, bələdiyyələrin fəaliyyətini tənzimləyən 30-a yaxın qanun, 150-dən çox normativ-hüquqi akt qəbul olunub. Onların fəaliyyətinə inzibati nəzarətin təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi yaradılıb. Şəhər və qəsəbə bələdiyyələrinin milli assosiasiyaları beynəlxalq təcrübəni öyrənir, bələdiyyələrə müxtəlif məsələlərdə yardım göstərirlər.

***- Milli Məclisin Regional məsələlər komitəsində bələdiyyələrin fəaliyyətini tənzimləyən bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi məsələsi ilə bağlı təkliflər hazırlanmışdır. Bununla bağlı nə deyə bilərsiniz?***

- Ölkəmizin dinamik inkişafı, cəmiyyət həyatında baş verən mühüm yeniliklər bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsini obyektiv sosial zərurətə çevirir. Bu səbəbdən də Milli Məclisin Regional məsələlər komitəsində mütəmadi olaraq bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunlara əlavə və dəyişikliklərlə bağlı təkliflər hazırlanır. Dəyişikliklər, bir qayda olaraq, bələdiyyələrin əraziləri, büdcəsi, mülkiyyəti, torpaqların alqı-satqısı ilə bağlı məsələləri əhatə edir.

Bələdiyyələrin büdcə sistemi ilə bağlı qanunvericiliyə təklif olunan son əlavə və dəyişikliklər yerli özünüidarəetmə orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə, onların əmlak, torpaq və digər vergiləri daha səmərəli toplamalarına yardımçı olmaq, habelə vətəndaşların əmlak vergisi ilə bağlı narazılıqlarını aradan qaldırmaq məqsədi daşıyır. Təkliflər Regional məsələlər komitəsində qəbul edilərək Milli Məclisin mayın 30-da keçiriləcək plenar iclasının müzakirəsinə tövsiyə olunub. Ən mühüm dəyişikliklərdən biri budur ki, vətəndaşlar əmlak vergisini bələdiyyələrə yaşadıqları evin sahəsinə görə ödəyəcəklər.

***- Sizcə, bu dəyişikliklərin əmlak vergisinin toplanılmasına nə kimi müsbət təsiri olacaq?***

- Bələdiyyələr tərəfindən əmlak vergisinin toplanılmasında müəyyən çətinliklər və problemlər mövcuddur. 2013-cü ildə bələdiyyələr tərəfindən 47 milyon manat məbləğində əmlak vergisi toplanılıb ki, bu da 2012-ci ilə nisbətən 12 milyon manat çoxdur. Ancaq bu rəqəm qat-qat çox da ola bilərdi. Əsas problemlərdən biri əmlak vergisinin hesablanmasının hamı tərəfindən qəbul edilən dəqiq hüquqi mexanizminin olmamasıdır. Sirr deyil ki, bələdiyyələr sənədsiz evlərdə yaşayan vətəndaşlardan əmlak vergisini toplaya bilmirlər. Bundan başqa, fərdi evlərin qiymətləndirilməsi bəzən vətəndaşları qane etmədiyindən, onlar hesablanmış əmlak vergisini ödəmək istəmirlər. Bəzi hallarda isə bahalı evlərin çox ucuz qiymətləndirilməsi hallarına rast gəlinir. Bütün bunlar bir daha təsdiqləyir ki, bələdiyyələrin əmlak vergisini vətəndaşları qane edən yeni kriteriyalar əsasında müəyyənləşdirmək üçün qanunvericikdə müvafiq dəyişikliklərə ehtiyac var.

*Nəzərdə tutulan dəyişikliyə əsasən, əmlak vergisi əmlakın hər kvadratmetrinə görə hesablanacaq. Fikrimizcə, bu yenilik həm vətəndaşların, həm də bələdiyyələrin mənafeyinə cavab verməklə, indiyə qədər bu sahədə mövcud olan çətinlikləri, anlaşılmazlıqları aradan qaldıracaq*

Nəzərdə tutulan dəyişikliyə əsasən, əmlak vergisi əmlakın hər kvadratmetrinə görə hesablanacaq. Fikrimizcə, bu yenilik həm vətəndaşların, həm də bələdiyyələrin mənafeyinə cavab verməklə, indiyə qədər bu sahədə mövcud olan çətinlikləri, anlaşılmazlıqları aradan qaldıracaq. Digər mühüm təkliflərdən biri də əmlak vergisinin nağd formada yığılmasının məhdudlaşdırılmasıdır. Bu, həm nağdsız ödənişlərin inkişafına səbəb olacaq, həm də bələdiyyə vergilərinin toplanılması sahəsində şəffaflığı, hesabatlılığı gücləndirəcək. Vətəndaşlar bələdiyyələrdən müvafiq bildirişləri aldıqdan sonra əmlak vergisini bank hesabına ödəyəcəklər. Yəni bələdiyyə işçiləri vətəndaşlardan nağd pul toplamayacaqlar. Belə olan halda, vətəndaşlar da bələdiyyələr qarşısında məsuliyyətlərini hiss edəcəklər.

***- Dəyişikliklər qüvvəyə mindikdən sonra əmlakın qiymətləndirilməsi hansı meyarlarla aparılacaq?***

- Təklif olunan dəyişikliklərdə əmlakın hər kvadratmetrinə görə bələdiyyələrə ödənilməli olan müvafiq verginin məbləği dəqiq müəyyən edilib. Hesab edirəm ki, əmlak vergisinin bu qayda əsasında müəyyənləşdirilməsi vətəndaşların mənayefinə tam cavab verir. Bakı şəhərində fiziki şəxslərin xüsusi mülkiyyətində olan qeyri-yaşayış sahələrinin hər kvadratmetrə görə 1,2 manat, vətəndaşların mülkiyyətində olan yaşayış sahələrinin hər kvadratmetrə görə isə 0,4 manat ödənilməsi nəzərdə tutulur. Yəni 100 kvadratmetrlik fərdi evi olan vətəndaş bələdiyyəyə 40 manat əmlak vergisi ödəyəcək. Regionlarda isə vətəndaşlar fərdi evlərinin hər kvadrametrinə görə 0,1 manat əmlak vergisi ödəməli olacaqlar.

Əmlak vergisini 30 kvadratmetrdən yuxarı olan evlərin sahibləri ödəyəcəklər. Bu dəyişikliklərin qüvvəyə minməsindən sonra vətəndaşlardan subyektiv qiymətləndirmələr əsasında əmlak vergisinin toplanması halları aradan qalxacaq, eyni zamanda bələdiyyələrin büdcəsinə daha böyük həcmdə əmlak vergisi daxil olacaq.

***- Sizcə, «Mülkiyyət hüquqları qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən yaşayış evləri və torpaq sahələri üzərində hüquqların leqallaşdırılması haqqında» qanun layihəsinin qəbulu əmlak vergisinin toplanmasına müsbət təsir göstərə biləcəkmi?***

- Bakı şəhərində 40-50 ildən çox müddətdə öz evində yaşayan, lakin müəyyən səbəblərdən onu sənədləşdirə bilməyən on minlərlə vətəndaş və sənədsiz inşa edilmiş on minlərlə ev var. Ölkə Prezidenti cənab İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində keçirilmiş müşavirədə belə evlərin sənədləşdirilməsi prosesinin sürətləndirilməsi ilə bağlı aidiyyəti dövlət qurumlarına göstərişlər verib, Milli Məclisdə bununla bağlı müvafiq qanun layihəsi üzərində işə başlanılıb. Ölkə başçısının haqlı olaraq qeyd etdiyi kimi, həmin evlərin inşasına vaxtilə icra və bələdiyyə orqanları tərəfindən göz yumulub.

Şübhəsiz, problemin həllinin ən düzgün yolu müəyyən şərtlər daxilində həmin evlərin sənədləşdirilməsi və vətəndaşların əmlak hüquqlarının tanınmasıdır. Ona görə də düşünürəm ki, kommunikasiya xətlərinin mühafizə zolaqlarında inşa edilməyən bu cür evlərin sənədləşdirilməsi prosesinə yaxın perspektivdə başlanılmalıdır. Prosesə 2015-ci ildə başlanılacağı bildirilir. Şübhəsiz, on minlərlə evin sənədləşdirilməsi bələdiyyələr tərəfindən torpaq və əmlak vergilərinin toplanması işinə son dərəcə müsbət təsir göstərəcək.

***- Vergilər Nazirliyinin bələdiyyələrə medodiki dəstək sahəsində fəaliyyətini necə dəyərləndirirsiniz?***

- Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində bələdiyyələrin fəaliyyətinin daha da təkmilləşdirilməsi, onların vəzifə və səlahiyyətlərinin dəqiq müəyyənləşdirilməsi, habelə onların fəaliyyətində informasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi, bələdiyyə vergilərinin toplanması işinin yeni dövrün tələblərinə uyğun qurulması son dərəcə vacibdir. Bu sahədə Vergilər Nazirliyi qanunvericiliklə üzərinə düşən vəzifələri lazımi səviyyədə həyata keçirir. Nazirlik yerli vergi və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə dəqiq riayət edilməsi sahəsində bələdiyyələrə zəruri metodiki dəstək göstərir.

2013-cü il yanvarın 1-dən qüvvədə olan Vergi Məcəlləsinə əsasən, icarəyə verilmiş əmlak bazara əsasən qiymətləndirilir və bu da əmlak vergilərinin optimal hesablanmasına imkan yaradır. Digər dəyişiklik əmlak vergisinin yığılmasına nəzarətin gücləndirilməsi məqsədilə daşınmaz əmlakın alqı-satqısı ilə bağlı notariat əməliyyatlarının və daşınmaz əmlak mülkiyyətçiləri barədə məlumatların hər ay Vergilər Nazirliyinə verilməsini nəzərdə tutur.

«Bələdiyyə Vergi İnformasiya Sistemi» layihəsinin reallaşdırılması da bələdiyyələrə dəstək baxımından mühüm əhəmiyyət kəsb edir. Layihə əsasında bələdiyyələrə AVİS sistemində onlayn kargüzarlıq, vergilərin elektron qaydada ödənilməsi, bəyannamələrin elektron qaydada təqdimatı imkanları yaradılacaq. Bu sistemlə bələdiyyələr qarşısında potensial vergi öhdəliyi olan fiziki və hüquqi şəxslər öz əmlaklarını qeydiyyatdan keçirə, qeydiyyat şəhadətnaməsi ala biləcəklər.

Hesab edirəm ki, Vergilər Nazirliyi bundan sonra da bələdiyyələrə zəruri metodiki dəstək göstərməklə onların işinin səmərəli qurulmasına öz töhfəsini verəcəkdir.

***Müsahibəni hazırladı:***
**Samir MUSTAFAYEV**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-aprel aylarında ölkədə istehsal edilmiş ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,2% artaraq **18,2 milyard manat** təşkil etmişdir.
- Ötən dörd ay ərzində ÜDM-in **1,7%-i** informasiya və rabitə xidmətləri sahəsində istehsal olunmuşdur.
- İqtisadiyyatın informasiya və rabitə sahəsində istehsal olunmuş ÜDM-in həcmi əvvəlki ilin eyni dövrünə nisbətən **12,3%** artmışdır.
- Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən verilən məlumata görə, 2017-ci ilin sonunadək Azərbaycan əhalisinin **85%-i**, o cümlədən bütün ev təsərrüfatları, işgüzar subyektlər yüksəksürətli, genişzolaqlı internetlə təmin olunacaq. Kənd yerlərində son istifadəçiyə verilən internetin sürəti 30, şəhər yerlərində isə **100 meqabit/saniyəyə** çatdırılacaqdır.
- Gürcüstan Milli Statistika Xidmətindən verilən məlumata görə, 2014-cü ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasından bu ölkəyə **203,53 milyon dollar** məbləğində məhsul ixrac olunmuşdur. Bu da 2013-cü ilin eyni dövrü ilə müqayisədə **7,94 faiz** çoxdur.
- Cari ilin yanvar-aprel aylarında Azərbaycanın dəniz nəqliyyatı ilə daşınan yüklərin həcmi **3,3 milyon ton** olmuşdur. Yüklərin **60,3%-ni** neft, **39,7%-ni** isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqələr üzrə həyata keçirilmişdir.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Aksizlər

Dolayı vergitutmanın bir forması olan aksizlərin yaranma dövrü Qədim Roma erasına təsadüf edir. Hələ o dövrlərdə duza və digər kütləvi tələbat mallarına bir vergi növü kimi aksizlər tətbiq olunurdu. Sonradan pul-əmtəə münasibətləri inkişaf etdikcə müəyyən mallara aksizlərin tətbiq olunması vergitutmanın əsas formalarından birinə çevrildi. Lakin gəlirlərin və əmlakların birbaşa vergilərə cəlb edilməsi formaları meydana çıxdıqdan sonra vergitutmanın aksiz şəklində tətbiq olunması forması arxa plana keçdi.

Müasir dövrdə əksər ölkələrin vergi qanunvericiliyində aksizlər bir vergi növü kimi nəzərdə tutulur və digər vergilərlə yanaşı, dövlətin maliyyə resurslarının formalaşmasında öz rolunu oynayır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən, aksizlər ölkə ərazisində tətbiq olunan və dövlət büdcəsinə ödənilən doqquz vergi növündən birini təşkil edir. Dövlət büdcəsinə ödənilən vergilərin ümumi məbləğində aksizlərin xüsusi çəkisi 8%-ə yaxındır. Aksizlərin vergi sistemində önəmli yer tutması onların bazar iqtisadiyyatının tənzimlənməsində və büdcə gəlirlərinin formalaşmasında yerinə yetirdiyi xüsusi funksiyalarından irəli gəlir.

*Aksizlər həm də aksizli mallara olan tələb və təklifin tənzimlənməsində, habelə malların istehlakının məhdudlaşdırılmasında istifadə olunan bir iqtisadi alət kimi çıxış edir*

Qeyd etmək lazımdır ki, dövlət büdcəsinə tutulan aksizlər malların keyfiyyətini, yaxud aksizli malların istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin fəaliyyətinin səmərəliliyini ifadə edən göstəricilərə aid edilmir. Aksizlər, adətən, yüksək rentabelli və məhdud dairədə mallara tətbiq olunur. Aksizli malların istehsalının və satışının xüsusiyyətlərindən asılı olaraq, bu malların istehsalçılarının əldə etdikləri yüksək mənfəətin müəyyən bir hissəsinin dövlət büdcəsinə alınması nəzərdə tutulur. Aksizlər həm də aksizli mallara olan tələb və təklifin tənzimlənməsində, habelə malların istehlakının məhdudlaşdırılmasında istifadə olunan bir iqtisadi alət kimi çıxış edir. Aksizli malların əhalinin aztəminatlı təbəqələrinin maddi vəziyyətinə neqativ təsirinin aradan qaldırılması üçün aksizlər bir qayda olaraq zinət əşyalarına və daha çox tələb olunan və bahalı olmayan məhsullara (spirtli içkilər, tütün məmulatları, benzin və s.) tətbiq olunur. Aksizlərin tətbiqi həm də istehsalçı təsərrüfat subyektlərində satış qiyməti hesabına həddən artıq yüksək mənfəətin yaranmasının qarşısını alır. Bu səbəbə görə çox vaxt yerin təkindən mineral xammalların çıxarılması ilə məşğul olan şirkətlərə aksizlər tətbiq olunur.

Beynəlxalq təcrübədə aksiz tutulan mallar, bir qayda olaraq, həm də ƏDV-yə cəlb olunur. ƏDV kimi aksizlər də dolayı vergi olsa da, onların fərqli xüsusiyyətləri vardır. ƏDV-dən fərqli olaraq, aksizlərin tətbiqi dairəsi məhduddur və onlar yalnız müəyyən olunmuş mallara tətbiq edilir. Aksizli malların növündən asılı olaraq aksizlərin tətbiq olunması fərdi xarakter daşıyır. ƏDV ilə müqayisədə daha bir fərq ondan ibarətdir ki, malın dövriyyəsi prosesində aksiz yalnız bir dəfə tətbiq olunur. Bu, bir qayda olaraq, malın istehsal edildiyi ilkin mərhələdə baş verir. İstehsal edilən aksizli mal yenidən satılarkən bir daha aksizə cəlb olunmur. Deməli, ilkin olaraq malın buraxılış qiymətinə əlavə olunmuş aksiz məbləği onun sonrakı dövriyyəsinin bütün mərhələlərində qiymətin tərkib hissəsi kimi qalır. Aksizin bir dəfə tutulması prinsipinin ƏDV-nin tutulma prinsipindən üstün cəhəti ondan ibarətdir ki, bu zaman inflyasiya prosesinin sonrakı inkişafı müəyyən dərəcədə ləngiyir.

Müxtəlif ölkələrdə aksizlərin tətbiqi ilə bağlı istifadə olunan mexanizmlərin harmonizasiya olunması əsas məsələlərdən biri sayılır. Təbii ki, onun həlli o qədər də asan məsələ deyildir. Adətən, aksizə geniş tələbat malları cəlb edildiyi üçün bu, əhalinin bütün təbəqələrinin maraqlarına toxunmuş olur. Aksizlərin istehsalı dövlət inhisarında olan mallara tətbiq olunması, harmonizasiya prosesinin kənd təsərrüfatı, energetika və nəqliyyat sahələrində də aparılması zərurəti məsələni bir qədər çətinləşdirir. Bunlardan əlavə, harmonizasiya zamanı ölkələrdə qüvvədə olan standartların, istehlakçıların hüquqlarının qorunmasına dair tələblərin, milli ənənələrin nəzərə alınması da vacibdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Avropa İttifaqı tərəfindən spirtli içkilərin, tütün məmulatlarının və neft məhsullarının aksiz dərəcələrinin uyğunlaşdırılmasını nəzərdə tutan direktivlər qəbul olunmuşdur. Bu direktivlər aksizlərin tətbiqi mexanizminin daim təkmilləşdirilməsinin ümumi qaydalarını, tətbiq olunan güzəşt və azadolmaları nəzərdə tutur. Avropa İttifaqına üzv ölkələr milli qanunvericiliklərində aksizlərin dərəcələrini və tətbiqi qaydalarını həmin direktivlərə əsasən müəyyən edir.

Belə nəticəyə gəlmək olar ki, aksizlərin fiskal imkanları yalnız onun tətbiqinin yeni sferalarının müəyyən olunması, inzibatçılığın təkmilləşdirilməsi, xüsusən də alkoqollu içkilər istehsal edən təsərrüfat subyektlərində dövlət nəzarətinin gücləndirilməsi hesabına əldə edilə bilər. Vergitutmanın aksiz forması reqressiv xarakter daşıyır, belə ki, onun yükü əhalinin imkanlı və aztəminatlı təbəqələrinin üzərinə bərabər şəkildə düşür. Digər vergi növləri kimi, aksizin də iqtisadiyyatın tənzimlənməsində istifadə edilən bir alət olduğu nəzərə alınaraq, onun tətbiqi məsələlərinə ehtiyatla yanaşılmasının zəruriliyi diqqətdə saxlanılır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi güzəşti

**Məcburi köçkün və Qarabağ müharibəsi veteranı olaraq himayəsində üç uşağı olan fiziki şəxsin əməkhaqqından vergi güzəşti nə qədərdir?**

Vergi Məcəlləsinin (VM) 102.2.7-ci maddəsinə əsasən, qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. 102.4.5-ci maddədə göstərilir ki, məcburi köçkünlər və onlara bərabər tutulan fiziki şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir.

VM-in 102.5-ci maddəsinə əsasən, qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır. 102.7-ci maddəyə görə, fiziki şəxsin 102.2-ci, 102.3-cü və 102.4-cü maddələr üzrə güzəşt hüququ olduqda, ona bu güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir.

Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə» 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı»nın 1.7-ci bəndində qeyd olunmuşdur ki, əməkhaqqından tutulan vergi hesablanarkən qanunvericiliklə müəyyən edilmiş qaydada müharibə veteranı adı almış şəxslərin güzəşt hüququ müharibə veteranı vəsiqəsi, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin arayışı, Müdafiə, Milli Təhlükəsizlik, Ədliyyə, Daxili İşlər nazirliklərinin arayışları, 1.14-cü bəndinə əsasən əməkhaqqından tutulan vergi hesablanarkən məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin güzəşt hüququ Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məcburi köçkün statusu haqqında vəsiqəsi, 1.15-ci bəndinə əsasən, himayədə olanlara görə əməkhaqqından tutulan gəlir vergisindən güzəşt ər və arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əsas iş yerindən işəgötürənin arayışı, Vergilər Nazirliyinin təsdiq etdiyi formada yerli icra hakimiyyəti və ya bələdiyyə tərəfindən verilmiş arayışlar əsasında müəyyənləşdirilir.

Bu Qərarın 2-ci bəndinə əsasən, güzəşt hüququna malik şəxslər yuxarıda adları çəkilən sənədlərdən birini təqdim etməlidirlər.

Beləliklə, məcburi köçkün, Qarabağ müharibəsi veteranı və eyni zamanda himayəsində üç uşaq olan fiziki şəxs yuxarıda qeyd olunan sənədləri əsas iş yerinə (əmək kitabçasının olduğu yerə) təqdim etməklə VM-in 102.2.7-ci və 102.4.5-ci maddələri ilə müəyyən edilmiş vergi güzəştlərinin məbləğcə ən böyük olanından, yəni 102.2.7-ci maddəsi ilə müəyyən edilmiş güzəştdən, eyni zamanda VM-in 102.5-ci maddəsi ilə müəyyən olunmuş güzəştdən istifadə edə bilər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

**Azərbaycanda «İnsan hüquqları aylığı»dır**

# Vergi ödəyicilərinin mənafeləri qorunur

*Azərbaycanın vergi siyasəti vergi orqanları qarşısında təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi mühüm vəzifələrə xidmət edir. Bunun nəticəsidir ki, Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9-u təsbit olunmuş, əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmışdır. Eyni zamanda, Vergi Məcəlləsində vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar yüngülləşdirilmişdir.*

Qanunvericilikdə edilmiş əlavə və dəyişikliklər nəticəsində mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV-nin dərəcəsi 20%-dən 18%-ədək azaldılmış, fiziki şəxslərin gəlir vergisinin hesablanması mexanizmi sadələşdirilmişdir. Aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədilə kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmiş, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən gəlir vergisinin tutulmasına güzəştlər tətbiq edilmiş, bankların, sığorta və təkrarsığorta şirkətlərinin mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsi mənfəət vergisindən azad olunmuşdur.

***İqtisadi inkişaf və qanunvericiliyə edilmiş dəyişikliklər vergi ödəyicilərinin fəaliyyətinə əlverişli zəmin yaradır***

Vergi Məcəlləsinə əlavə və dəyişikliklər paketini nəzərdən keçirdikdə dövlətimizin mütərəqqi vergi sisteminin formalaşmasında nə qədər maraqlı olduğu aydın görünür. Əlavə və dəyişikliklərin həm mahiyyəti, həm tətbiq dairəsi, eyni zamanda təqdim olunmuş güzəştlərin həcmi və kateqoriyaları baxımından son illər daha da genişlənmişdir. Bu dəyişikliklərdə vergi qanunvericiliyinin beynəlxalq normalara uyğunlaşdırılması, habelə son bir neçə il ərzində qarşıya çıxan problemlərin həlli ilə bağlı məsələlər nəzərə alınmışdır.

Vergi Məcəlləsinə vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların daxil edilməsi xüsusi yer tutur. Bu, ölkəmizin təcrübəsində ciddi yenilik hesab olunur. Vergi tərəfdaşlığı sazişi - vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir. Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli qərarı ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin forması» və «Vergi partnyorluğu sazişinin bağlanması qaydaları» bu istiqamətdə işlərin başlanmasına normativ-hüquqi zəmin yaradıb. «Vergi partnyorluğu sazişi forması»nın 1.3 bəndinə əsasən, partnyorluq sazişi sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq; əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək; müasir idarəetmə alətləri vasitəsilə biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək; vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək; ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq; vergi risklərini minimallaşdırmaq məqsədilə imzalanacaq. Ümumilikdə, vergi partnyorluğu sazişinin reallaşdırılması, ilk növbədə, Azərbaycanda biznes mühitinin liberallaşdırılması tədbirlərinin davamlı səciyyə daşıdığını göstərir.

***Fiziki şəxslər vergi güzəştlərindən daha çox yararlanırlar***

Vergi qanunvericiliyində edilmiş dəyişikliklərdə xüsusi diqqət çəkən məsələlərdən biri fiziki şəxslərin gəlir vergisi ilə bağlıdır. Bu dəyişikliklərə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilmiş, aylıq və illik gəlirlərin 14% dərəcə ilə vergiyə cəlb edilən məbləğləri müvafiq olaraq 2000 manatdan 2500 manata və 24000 manatdan 30000 manata qədər qaldırılmışdır.

Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

I-II qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə şamil edilmişdir. Muzdlu işlə əlaqədar aylıq gəliri 200 manatadək, illik gəliri 2400 manatadək olan şəxslərə verilən güzəştin məbləği də artırılmışdır. Bu güzəştin müəyyən edilməsində istifadə olunan minimum əməkhaqqı məbləği (93,5 manat) əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu məbləği (125 manat) ilə əvəz olunmuşdur.

Fiziki şəxslərin gəlir vergisində edilmiş dəyişikliklər vətəndaşların gəlirlərinin böyük bir hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, əməkhaqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi hesab edilir.

***Mütərəqqi vergi siyasəti öz bəhrəsini verir***

Bu il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərdə körpələr evləri, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri 10 il müddətinə hüquqi şəxslərin mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad edilmişlər. Bu güzəşt gələcəkdə ölkəmizdə yeni uşaq bağçalarının, körpələr evlərinin tikilib istifadəyə verilməsinə stimul verəcək.

Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər də 2014-cü il yanvarın 1-dən 1 il müddətində gəlir vergisindən azad olunmuşdur. Bununla əhalinin banklara qoyduğu əmanətlərin artacağı gözlənilir.

Azərbaycan hökuməti orta və uzunmüddətli perspektivdə texnoparkların inkişafını stimullaşdırmağı vacib hesab edir. Qanunvericilikdə sənaye və texnologiyalar parklarında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik vergi güzəşti tətbiq ediləcək. Ekspertlərin fikrincə, bu addımın atılması iqtisadiyyatın inkişafına böyük təsir göstərəcək. Vergi güzəştləri texnoparklarda həyata keçirilən layihələrin miqyasının genişlənməsinə, investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin yaradılmasına əlavə stimul verəcək.

***Vergi güzəştləri əhalinin gəlirlərinə də müsbət təsir göstərir***

Mütəxəssislərin hesablamalarına görə, tətbiq edilən vergi güzəştləri və imtiyazlar nəticəsində təkcə 2013-cü ildə 47 milyon manatdan artıq vəsait vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalmışdır. Həmin vəsaitlər sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, vətəndaşların sosial və digər problemlərinin həlli üçün kifayət qədər əhəmiyyətli rol oynayır. Bu il tətbiq olunan vergi güzəştləri nəticəsində vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalan vəsaitlərin həcmi artacaq.

**Rəşad SADIQOV**

# Vergilər Nazirliyi 54 elektron xidmət göstərir

*Vergilər Nazirliyinin bu günlərdə istifadəyə verdiyi daha 3 elektron xidmət: «Vergi partnyorluğu Sazişi»nin bağlanması üçün ərizələrin qəbulu, «Cari vergi ödəmələrinin hesablanması haqqında Arayışın təqdim edilməsi» və «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi» www.e-taxes.gov.az və www.e-gov.az ünvanlarında təqdim olunur. Xidmətdən istifadə ödənişsiz həyata keçirilir.*

Qeyd edək ki, ölkə Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Vergilər Nazirliyində 60 elektron xidmət göstərilməsi nəzərdə tutulub. Hazırda bu xidmətlərdən 54-ü artıq istifadəçilərin ixtiyarındadır.

***«Vergi partnyorluğu Sazişi»nin bağlanması üçün ərizələrin qəbulu*** İnternet Vergi İdarəsi portalının «Onlayn Karğüzarlıq» bölümü üzərindən aparılır. Bu məqsədlə «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə:

♦ «Kimə» siyahısından - Vergilər Nazirliyi;

♦ «Müraciətin növü» siyahısından - Ərizə;

♦ «Sənədin növü» siyahısından - «Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə» seçilir və «Qəbul» düyməsi basılır.

♦ Açılmış ərizə formasında «Ərizənin təyinatı» bölməsində ərizənin doldurulma səbəbi «X» işarəsi ilə işarələnir.

♦ «Vergi ödəyicisi haqqında məlumat» bölməsində sistemə telefon nömrəsi və ya elektron ünvan barədə məlumat daxil edilir.

♦ «Ərizənin məzmunu» bölməsində ərizənin təyinatına uyğun olaraq tarixlər qeyd edilir.

♦ Sonda ərizəyə əlavə olunan sənədlərin sayı qeyd olunur.

♦ Gücləndirilmiş elektron imza vasitəsilə sistemə daxil olmuş vergi ödəyicisi hazırlanmış ərizəni göndərmək üçün «İmzala və göndər» düyməsini basır. İstifadəçi kodu, parol, şifrə vasitəsilə sistemə daxil olmuş vergi ödəyiciləri isə «Qəbul» düyməsini sıxırlar.

«Vergi partnyorluğu Sazişi»nin bağlanması üçün ərizə sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16-rəqəmli qeydiyyat nömrəsi əks olunmuş bildiriş verilir.

İstifadəçi kodu, parol, şifrə, yaxud VÖEN səhv olarsa, «Vergi partnyorluğu Sazişi»nin bağlanması üçün ərizənin qəbulundan imtina edilir.

Elektron xidmətin icra müddəti sorğunun informasiya sistemində emalı müddətindən asılıdır.

***Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi*** istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və bunun informasiya sistemində emalı müddətindən asılıdır. Dərcolunma faktını təsdiq edən sənəd «Vergilər» qəzetində kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumat dərc edildiyi gün kommersiya hüquqi şəxsin elektron qutusuna ötürülür. Kommersiya hüquqi şəxsin ləğvi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlər qəbul olunur və onların dərcolunma faktını təsdiq edən sənədlər verilir.

Müraciət edən şəxs İnternet Vergi İdarəsi portalı vasitəsilə «Onlayn kargüzarlıq» bölümü üzərindən gücləndirilmiş elektron imzanı daxil etməklə «Yeni müraciət» düyməsini basır və siyahıdan «Vergilər» qəzetinə müraciətin göndərilməsi (Hüquqi şəxsin ləğv edilməsi barədə)» başlıqlı sənəd növünü seçir. Açılan ekranda müraciət edən şəxs VÖEN-i, kommersiya hüquqi şəxsin ləğv edilməsi barədə qərarın tarixini, kreditorların tələblərinin bildirilməli olduğu tam ünvanı və kreditorların tələblərinin irəli sürülməsi müddəti barədə məlumatları müvafiq xanalara daxil edərək «İrəli» düyməsini sıxır. Proqram tərəfindən avtomatik hazırlanan mətn ekrana çıxır. Müraciət edən şəxs mətnlə tanış olduqdan sonra məlumatı «İmzala və göndər» düyməsini basmaqla təsdiqləyir.

Məlumat təsdiqləndikdən sonra isə onun dərc olunması ilə bağlı müraciətin qəbulu barədə «Bildiriş» ekrana çıxır və bununla eyni vaxtda kommersiya hüquqi şəxsin elektron qutusuna göndərilir.

İstifadəçi sorğunun formalaşdırılması üçün nəzərdə tutulmuş məlumatları səhv daxil etdikdə sorğu qəbul edilmir. Bu, istifadəçinin yenidən sorğu verməsinə mane olmur.




***Cari vergi ödəmələrinin hesablanması haqqında arayışın vergi orqanına təqdim edilməsi*** İnternet Vergi İdarəsi portalının «Onlayn kargüzarlıq» bölümü üzərindən aparılır. Bu məqsədlə «Yeni müraciət» düyməsi basılır və açılan pəncərədən «Kimə» siyahısından - Vergilər Nazirliyi, «Müraciətin növü» siyahısından - «Cari vergi ödəmələrinin hesablanması barədə arayış» seçilir.

Açılmış «Cari vergi ödəmələrinin hesablanması haqqında arayış» formasına məlumatlar daxil edilir, «İrəli» düyməsi basılır və daxil edilmiş məlumatlara uyğun hazırlanmış arayış ekranda görünür. Gücləndirilmiş elektron imza vasitəsi ilə sistemə daxil olmuş vergi ödəyiciləri hazırlanmış arayışı göndərmək üçün «İmzala və göndər» düyməsini basır. İstifadəçi kodu, parol, şifrə vasitəsilə sistemə daxil olmuş vergi ödəyiciləri isə «Qəbul» düyməsini sıxır.

Arayış göndərildikdən sonra Vergilər Nazirliyinin AVİS Kargüzarlıq altsistemində yeni nömrə ilə cari vergi ödəmələrinin hesablanması haqqında arayışın qeydiyyata alınması barədə bildiriş ekrana çıxır. Arayış rüb bitdikdən sonra növbəti ayın 1-dən 15-dək göndərilə bilər.

İstifadəçi kodu, parol, şifrə, yaxud VÖEN səhv olarsa, arayışın göndərilməsi tarixi rüb bitdikdən sonra növbəti ayın 1-dən 15-dək olan müddətdən fərqli olarsa, xidmətdən imtina edilir.

**AYTƏN**

# Vergi daxilolmalarının artımı davamlı iqtisadi inkişafa təkan verir

*2014-cü ildə Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 102 milyon manat daxilolma proqnozlaşdırılmışdır ki, bunun da 4 milyard 300 milyon manatı və ya 60,5 faizi qeyri-neft-qaz sektorunun, 2 milyard 802 milyon manatı və ya 39,5%-i neft-qaz sektorunun payına düşür.*

Cari il üçün proqnozlaşdırılan məbləğ 2013-cü ilin proqnozu ilə müqayisədə 702 milyon manat və ya 11%, faktiki göstəriciləri ilə müqayisədə isə 438,0 milyon manat və ya 6,6% çoxdur. Qeyri-neft-qaz sektoru üzrə proqnozlaşdırılan məbləğ 2013-cü ilin bu sektor üzrə proqnozu ilə müqayisədə 540 milyon manat və ya 14,4%, faktiki göstəriciləri ilə müqayisədə isə 538,1 milyon manat və ya 14,3% çoxdur.




Azərbaycanın dinamik inkişafını özündə əks etdirən iqtisadi göstəricilər dünya ölkələrinin çox ciddi iqtisadi və sosial problemlərlə üzləşdiyi bir zamanda 2014-cü ilin yola saldığımız yanvar-aprel aylarının da uğurla başa vurulduğunu deməyə əsas verir. İqtisadi və sosial tərəqqinin əsas keyfiyyət göstəricisi olan ümumi daxili məhsulun (ÜDM) həcmi 18,2 milyard manat təşkil etmiş, qeyri-neft sektorunda ÜDM-in 9%-lik artımına nail olunmuşdur. Bu dövrdə inflyasiyanın həcmi 1,9%, bütün mənbələr hesabına qoyulan investisiyalar 4,6 milyard manat, əhalinin gəlirləri isə 12,1 milyard manat olmaqla 4,8% artmışdır. Orta aylıq əməkhaqqı 6,6% artaraq 434,3 manat, əhalinin hər bir nəfərinə düşən gəlir isə 3,3% artaraq 1290,7 manat təşkil etmişdir. 2014-cü ilin yanvar-aprel aylarında dövlət büdcəsinin proqnozu 106,4% icra olunmaqla 6,5 milyard manat olmuşdur.

Davamlı iqtisadi inkişaf, öz növbəsində, vergi daxilolmalarının da artımına münbit şərait yaratmışdır. Cari ilin yanvar-aprel ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 2 milyard 650,4 milyon manat vəsait səfərbər olunaraq proqnoz tapşırığına 107,8% əməl edilmiş, dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2013-cü ilin müvafiq dövrünə nisbətən 136,6 milyon manat və ya 5,4% artmışdır. Bu dövrdə əhalinin gəlirlərinin artımının, kiçik və orta sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq, gəlir vergisi və sadələşdirilmiş vergi üzrə daxilolmalar da ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 18,5 və 22,1% artmışdır.

Ölkə iqtisadiyyatında qeyri-neft-qaz sektorunun inkişafının prioritet olaraq müəyyən edilməsi və bu istiqamətdə kompleks tədbirlərin reallaşdırılması, həmçinin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin səmərəliliyi bu sektor üzrə büdcəyə vergi daxilolmalarının artmasına əhəmiyyətli təsir göstərmişdir.

Bu ilin yanvar-aprel ayları ərzində qeyri-neft-qaz sektoru üzrə 1 milyard 411,9 milyon manat vəsait daxil olmuşdur ki, bu da proqnoza 108,4% əməl edilməklə 109 milyon manat əlavə vəsaitin dövlət büdcəsinə səfərbər edilməsi deməkdir. Sektor üzrə müəyyən olunmuş proqnozun artıqlaması ilə icra olunmasından əlavə, daxilolmalarda ötən ilin müvafiq dövrü ilə müqayisədə 187 milyon manat və ya 15,3% artım qeydə alınmışdır.

Vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi həm ümumilikdə, həm də qeyri-neft-qaz sektoru üzrə artmışdır. Bu ilin ilk dörd ayında toplanılan vergilərin ÜDM-də xüsusi çəkisi ötən ilin müvafiq dövrünə nisbətən 0,2 bənd artaraq 14,6%, qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmalarının bu sektor üzrə ÜDM-də xüsusi çəkisi isə 2013-cü ilin müvafiq dövrünə nisbətən 0,8 bənd artaraq 14,1% təşkil etmişdir.

2014-cü ilin yanvar-aprel ayları ərzində toplanılan vergilərin 758,8 milyon manatı və ya 28,6%-i dövlət sektoruna, 1 milyard 891,6 milyon manatı və ya 71,4%-i isə qeyri-dövlət sektoruna aid olmuşdur.

Ölkədə iqtisadi siyasətin prioritet istiqamətlərindən olan özəl sektorun inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin müsbət nəticələri bu sahə üzrə vergi daxilolmalarının dinamikasında da özünü əks etdirməkdədir. Qeyri-neft-qaz sektorunun qeyri-dövlət sahəsində fəaliyyət göstərən vergi ödəyicilərindən 2014-cü ilin yanvar-aprel ayları ərzində dövlət büdcəsinə 1 milyard 120,7 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 163,0 milyon manat və ya 17% çoxdur.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icra edilməsi, sahibkarlığın inkişafı üçün zəruri olan müasir infrastrukturun inkişafı bölgələrdə əlverişli biznes mühitinin yaranmasına münbit şərait yaratmış, regionlar üzrə vergi daxilolmalarının artımına müsbət təsir göstərmişdir. Cari ilin yanvar-aprel aylarında ölkənin rayon və şəhərləri üzrə müəyyən olunmuş vergi daxilolmalarının proqnozu 108,6% icra edilməklə yanaşı, dövlət büdcəsinə 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 30,2 milyon manat və ya 18,9% çox vəsait daxil olmuşdur.

Müsbət hal kimi onu da qeyd etməyə dəyər ki, regionlar üzrə daxilolmaların qeyri-neft-qaz sektoru üzrə daxilolmalarda xüsusi çəkisi 2013-cü ilin müvafiq dövrünə nisbətən 0,4 bənd artaraq 13,5%-ə çatmışdır. Respublikanın şəhər və rayonları üzrə vergi gəlirlərinin artımı artıq Sumqayıt, Şirvan, Mingəçevir şəhərlərinə, eləcə də Abşeron və İmişli rayonlarına öz xərclərini tamamilə yerli gəlirlər hesabına təmin etməyə imkan yaratmışdır.




**Vüsal QARAYEV,**
***İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin İqtisadi təhlil idarəsinin rəisi***

# Gömrük-ticarət prosedurları sadələşdirilir

## *Bakıda Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin I Qlobal Konfransı keçirilmişdir*

«Bali sazişindən irəli gələrək ticarətin asanlaşdırılması: siyasətin gerçəkləşməsi» mövzusunda keçirilən tədbirdə Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin prezidenti, professor Devid Uidduson bildirib ki, Bali sazişinin əsas məqsədi gömrüyün təkmilləşdirilməsi və ticarətin asanlaşdırılması, bununla da gömrük siyasətinin düzgün qurulması, məlumat toplanması və qərar verənlərə ötürülməsidir. Qeyd olunub ki, Bali sazişi dünya ölkələri arasında asan ticarət əlaqələrinin genişləndirilməsini, gömrük tariflərinin optimallaşdırılmasını və prosedurların sadələşdirilməsini nəzərdə tutur. Dünya Gömrük Təşkilatının tövsiyələrinə uyğun olaraq ticarətin asanlaşdırılması və yeni gömrük strategiyasının formalaşdırılması, bundan irəli gələrək müvafiq şəbəkənin yaradılması və genişləndirilməsi ölkələrin qarşısında duran əsas məsələlərdəndir. Bununla yanaşı, birgə fəaliyyət çərçivəsində gömrük sahəsində risklərin müəyyən edilməsi və müvafiq tədbirlərin görülməsi də vacibdir: «Ticarət sərhəd tanımır və onun asanlaşdırılmasına nail olmaq böyük nailiyyətdir. Azərbaycan gömrüyün təkmilləşdirilməsi və ticarətin asanlaşdırılması prosesində fəal iştirak edir, ticarət sistemi ilə bağlı yeni texnologiyaların tətbiqinə açıq olduğunu göstərir. Dünya Gömrük Təşkilatının Bakı şəhərindəki potensialın gücləndirilməsi üzrə regional ofisi gömrük xidmətinin təkmilləşdirilməsinə və inkişafına öz töhfəsini verir».

Azərbaycan dünya gömrük sisteminə inteqrasiyanı dərinləşdirərək sərhəd-gömrük orqanlarının yenidən qurulması, gömrük qanunvericiliyinin müasirləşdirilməsi, İKT-nin istifadəsi, «bir pəncərə» sisteminin tətbiqi sahəsində xeyli uğurlar əldə edib. Həyata keçirilən islahatlar qaçaqmalçılığa və digər hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi, gömrük tariflərinin təkmilləşdirilməsi və maliyyə intizamının möhkəmləndirilməsinə şərait yaradıb. Yaxın günlərdə gömrük nəzarətinin həyata keçirilməsi üçün prosedurlar xeyli sadələşdiriləcək ki, bu da ticarətin asanlaşmasına imkan yaradacaq.

Xarici ekspertlərin qənaətinə görə, konfrans gömrük sahəsində modernləşməyə, kadrların peşəkarlığının artırılmasına töhfəsini verəcəkdir. Qeyd edək ki, ölkəmizdə xarici ölkələrlə gömrük sahəsində qabaqcıl təcrübəni öyrənmək və müasir kadrlar yetişdirilmək məqsədilə Gömrük Akademiyası təsis edilib və yaxın vaxtlarda fəaliyyətə başlayacaq.

Qlobal konfransın yekunu olaraq, Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi və Avropa Port İcma Sistemləri Assosiasiyası arasında anlaşma memorondumu imzalanıb.

**E.CƏFƏRLİ**

Azərbaycan Mətbuat Şurası / Azerbaijan Press Council

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ
«Vergilər» qəzeti

## Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə təşkil etdiyi «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin

# ELANI

Müsabiqənin məqsədi ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müasir vergi sistemi ilə bağlı yeniliklərin və məlumatların cəmiyyətə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

***Müsabiqənin mövzuları:***

- Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti;
- Vergi Partnyorluğu Sazişi: qarşılıqlı inam və etimad körpüsü;
- Əmək müqaviləsi: gələcəyin təminatı.

***Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması***

Müsabiqəyə hər üç istiqamət üzrə təqdim edilmiş yazıların mükafatlandırılması nəzərdə tutulur.

➔ I yer (3) - 800 manat
➔ II yer (3) - 500 manat
➔ III yer (3) - 300 manat

Bundan əlavə, 10 ən yaxşı yazı müəllifinə həvəsləndirici mükafatlar veriləcəkdir. Qaliblər Azərbaycan Mətbuat Şurası və Vergilər Nazirliyinin «Vergilər» qəzetinin xüsusi diplomları ilə təltif olunacaqlar.

***Müsabiqədə iştirak***

Müsabiqə elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, televiziya və informasiya agentliklərində) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan yazılara aid tələblər***

1. Müsabiqəyə hər jurnalist yalnız bir yazı təqdim edə bilər.
2. Yazı son bir ildə həftədə bir dəfədən az olmayaraq nəşr edilən, Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi «qara siyahı»ya düşməyən mətbuat orqanlarında dərc edilməlidir.
3. Yazıda «Vergilər Nazirliyinin «Vergilər» qəzetinin və Azərbaycan Mətbuat Şurasının keçirdiyi müsabiqəyə təqdim etmək üçün» qeydi göstərilməlidir.

***Yazıların qəbulu şərtləri***

1. Yazının dərc olunduğu mətbuat orqanı (qəzet, jurnal) - 1 nüsxə.
2. Yazının elektron variantı - CD diskdə. (Əgər yazı internet media resursunda gedibsə, CD diskdə yazının linki də göstərilməlidir).
3. Yazının A4 formatda çap olunmuş variantı (müəllifin imzası göstəril məməlidir) - 3 nüsxə.
4. Yazının həcmi 9-11 min işarə arasında olmalıdır.

***Tələb olunan sənədlər***

1. İşlədiyi KİV tərəfindən müəllifə verilən vəsiqənin surəti.

*Yazıların qəbulu 01 may 2014-cü il tarixdən başlayır, 31 may 2014-cü il tarixdə bitir. Müsabiqənin nəticələri 2014-cü il iyunun 10-dək açıqlanacaqdır.*

*Yazılar rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Azərbaycan Mətbuat Şurasına şəxsən təqdim olunmalıdır (Bakı şəhəri, Teymur Əliyev küç., 38).*

*Əlaqə tel.:*
*(012) 441 35 95; (050) 534 93 26;*
*(055) 201 99 26*

***Qiymətləndirmə meyarları:***

- mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma;
- məqalənin oxucu üçün informasiyalılıq səviyyəsi;
- yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti.

# Dünyanın məşhur energetika şirkətləri paytaxtımıza gəlir

***İyunun 3-dən 6-dək Bakı Ekspo Mərkəzində Xəzəryanı regionun energetika sektorunun ən böyük tədbiri sayılan XXI Azərbaycan Beynəlxalq «Xəzər neft və qaz 2014» sərgi və konfransı keçiriləcəkdir.***

«Caspian oil and gas» sərgisi neft və qazın hasilatı və emalı, eləcə də nəqletmə və logistika da daxil olmaqla, servis xidmətləri sahəsində qabaqcıl texnologiyaları nümayiş etdirmək üçün neft sənayesinin aparıcı mütəxəssislərini və liderlərini bir araya gətirir.

Sərginin təşkilatçısı «İteca Caspian» şirkətindən bildirmişlər ki, bu il sərgidə dünyanın 28 ölkəsindən 400-dən çox şirkətin iştirakı gözlənilir. Sərgi sahəsinin 70%-dən çoxu dünyada məşhur şirkətlər tərəfindən tutulmuşdur. Onların arasında «Əsrin müqaviləsi»nin iştirakçıları ilə yanaşı, sərgi və konfransın daimi iştirakçıları da var. Bunlar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ), «bp», «Statoil», «TPAO», «Lukoil» kimi böyük şirkətlərdilər. ARDNŞ-in baş sponsor qismində çıxış etdiyi sərgidə bu il Böyük Britaniya, Almaniya, İtaliya, Çin, Rusiya, ABŞ və Fransadan səkkiz milli qrup iştirak edəcəkdir. Ümumilikdə isə iştirakçıların 21%-ni təşkil edən və əvvəllər heç vaxt Azərbaycan bazarına çıxmayan yeni şirkətlərin bu sərgidə iştirakı tədbirə marağın artdığını bir daha təsdiqləyir.

Sərgi çərçivəsində ardıcıl olaraq iki ildir «bp» şirkətinin və onun «Azəri-Çıraq-Günəşli» (AÇG), «Bakı-Tbilisi-Ceyhan» (BTC), «Şahdəniz» (ŞD) və «Cənubi Qafqaz boru kəməri» (CQBK) layihələri üzrə tərəfdaşlarının təşəbbüsü ilə «Alıcı ilə tanış olun!» şüarı altında tədbir keçiriləcəkdir. Tədbirdə istismar təminatı, mühəndis-texniki işlər, inşaat, maddi-texniki təchizat, tullantıların toplanması və utilləşdirilməsinin idarə olunması, müxtəlif işgüzar xidmətlərin göstərilməsi və s. sahələrdə ixtisaslaşan yerli şirkətlər iştirak edəcəklər.

İşgüzar proqramın mühüm tərkib hissələrindən biri də Beynəlxalq «Xəzər Neft və Qaz 2014» konfransıdır. Konfrans iyunun 4-dən 5-dək «JW Marriott Absheron Baku» otelində təşkil olunacaqdır. Hər il keçirilən bu konfransda dünyanın 30-dan çox ölkəsindən 500-dən çox nümayəndə iştirak edəcəkdir. Builki konfransda dövlət strukturlarını təmsil edən 50-dən çox nümayəndənin, eləcə də müxtəlif dünya ölkələrindən neft-qaz sahəsi üzrə tanınmış ekspertlərin və iri neft-qaz şirkətlərini təmsil edən rəhbərlərin çıxışları gözlənilir.





Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Sahibkarlıq fəaliyyətində nümayəndəlik xərclərinin auditi

*Nümayəndəlik xərcləri ezamiyyə xərclərindən fərqli olaraq hər hansı formada məhdudlaşdırılmır, lakin nümayəndəlik xərclərinə aid edilən təsərrüfat əməliyyatları və bu əməliyyatlarla bağlı sənədləşmələrin ezamiyyə əməliyyatlarının sənədləşdirilməsinə oxşaması audit zamanı diqqəti cəlb edə bilər. Müəssisənin fəaliyyətində məhsul (iş, xidmət) istehsalı ilə birbaşa əlaqəsi olmayan, lakin dolayısı ilə müəssisənin inzibati, kommersiya və sair xərclərinə aid edilən nümayəndəlik xərcləri və onun tərkibinin düzgün müəyyənləşdirilməsi təsərrüfat uçotunun aparılmasında vacib məsələlərdən biridir.*

«Nümayəndəlik» ifadəsinə aydınlıq gətirilməsi üçün bu ifadəni «ezamiyyə» ifadəsi ilə əlaqələndirmək olar. Əslində, «nümayəndəlik» əməliyyatları «ezamiyyə» əməliyyatlarının əksidir. Məsələn, müəssisənin hər hansı keçirdiyi tədbirə dəvət olunan KİV nümayəndəsinin yol, mehmanxana və gündəlik xərcləri KİV redaksiyası tərəfindən çəkildiyi halda redaksiya üçün ezamiyyə əməliyyatları, müəssisə tərəfindən çəkildiyi halda isə müəssisə üçün nümayəndəlik əməliyyatları baş vermiş olur. Sanki qarşıqlıq yarada biləcək bu iki oxşar əməliyyatların müəyyənləşdirilməsində yanlışlığa yol verilməməlidir. Əks halda, həmin əməliyyat ezamiyyə əməliyyatı kimi və ya fiziki şəxsin gəlirləri kimi qiymətləndirilə və vergitutma məqsədləri üçün xərclərin hesablanmasında məhdudlaşdırılmaqla nəzərə alına bilər.

Hazırda inkişaf edən sahibkarlıq fonunda mütəmadi qaydada ictimaiyyətlə qarşılıqlı münasibətlərin qurulması taktikasına daha çox üstünlük verilir. İctimaiyyətlə əlaqələrin qurulması, marketinq araşdırmaları və reklam xarakterli işlərin həyata keçirilməsi, bizneslə bağlı xarici (kənar) ekspertlərə ehtiyacın yaranması, əsas (ana) təşkilatın idarəçilik funksiyalarını yerinə yetirməsi və digər mümkün səbəblər nümayəndəlik əməliyyatlarının baş verməsini labüd edə bilər.

Misal olaraq regionda yerləşən və sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisədə baş verən aşağıda göstərilən iki halı analiz edək.

1. Müəssisə regionda reklam xarakterli və ictimaiyyətlə əlaqələrin yaradılması məqsədi daşıyan tədbir təşkil etmişdir. Bu tədbirin xərcləri müəssisənin uçot siyasətinə uyğun olaraq reklam (marketing) xərcləri kimi xarakterizə olunur və tanınır. Tədbirə yazılı formada dəvət məktubu göndərilməklə Bakı şəhərindən KİV və ictimai birliklərin nümayəndələri dəvət olunmuşdur. Dəvət məktubunda tədbirin iştirakçılarının (nümayəndələrin) yol, mehmanxana və gündəlik xərclərinin müəssisə tərəfindən ödənilməsi göstərilmişdir.

Sadalanan xərcləri təsdiq edən sənədlər müəssisənin adına rəsmiləşdirildiyi, yəni xərclərin sifarişçisi müəssisə olduğu halda, bu xərclər müəssisə üçün reklam xərclərinə aid edilən nümayəndəlik xərcləri kimi qəbul edilməli və vergitutma məqsədləri üçün də gəlirdən çıxılan xərclərə aid edilməsi qanunauyğundur. Sənədlər dəvət olunan nümayəndənin öz adına tərtib olunmuşdursa, bu sənədlərin müəssisə tərəfindən qəbul edilməsi və əvəzinin ödənilməsi həmin fiziki şəxsin (nümayəndənin) gəlirləri kimi qiymətləndirilməli və gəlir vergisinə cəlb olunmalıdır, həmçinin bu xərclər vergitutma məqsədləri üçün gəlirdən çıxılan xərclərə aid edilməməlidir.

2. Müəssisənin vacib avadanlığında nasazlıq baş vermiş və buna görə də Bakı şəhərindən kənar ekspertin gəlməsinə və avadanlığa baxış keçirməsinə ehtiyac yaranmışdır. Bununla bağlı xərclərə ekspertin xidmət haqqı və onun yol, mehmanxana və gündəlik xərclərinin əvəzinin ödənilməsi aid edilmişdir.

Bunun üçün iki formada müqavilə bağlanıla bilər. Birincisi dəvətlə bağlı əvəzi ödənilməli xərclərin ekspertlə bağlanılan xidmət müqaviləsinin dəyərinin tərkibində nəzərdə tutulmasıdır. İkincisi isə əvəzi ödənilməli xərclərin ekspertlə bağlanılan xidmət müqaviləsinin dəyərinin tərkibinə aid edilməyərək müəssisə tərəfindən (müəssisənin adından) çəkilməklə müəssisənin nümayəndəlik xərclərinin tərkibinə aid edilməsidir.

Lakin analiz etsək aydın olar ki, hər iki halda nümayəndəlik əməliyyatları baş vermir. Ona görə ki, birinci halda dəvətlə bağlı əvəzi ödənilməli xərclər müqavilə dəyərinin tərkibində ümumi ekspert xərcləri adı altında müəssisənin gəlirdən çıxılmalı xərclərinə aid edilir, həmçinin icraçı ekspertin gəlirlərinə aid edilməklə icraçı (ekspert) tərəfdə vergilərin formalaşmasına səbəb olur. İkinci halda bu xərclər icraçı ekspertin gəlirlərinə aid edilmədiyinə görə (müqavilədə nəzərdə tutlmadığına görə), icraçı (ekspert) tərəfdə həmin dəyər müqabilində vergilər formalaşmır və üstəlik, nümayəndəlik xərcləri adı altında bu xərclərin müəssisənin gəlirdən çıxılmalı xərclərinə aid edilməsi qarşı (ekspert) tərəfdə vergidən yayınma və ya süni surətdə vergiləri minimallaşdırma halı kimi şübhəli məqam yaradır. Bu məqam müəssisə tərəfdə həmin xərclərin ekspertin dəvətlə bağlı əvəzi ödənilməli nümayəndəlik xərcləri kimi qəbul edilməsini inkar etdirə və həmin xərclərin gəlirdən çıxılmaması məsələsini ortaya qoya bilər. Bu cür məqamların audit zamanı nəzərə alınması lazımdır.

**Davamı növbəti sayımızda**

# Qiymətli kağızlar bazarında canlanma müşahidə olunur

*Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi 2014-cü ilin birinci rübü ərzində qiymətli kağızlar bazarının durumunu əks etdirən fəaliyyət hesabatını açıqlayıb*

Hesabatda qeyd edilir ki, birinci rüb ərzində bütün seqmentlər üzrə aparılan əməliyyatların sayı və həcmində canlanma müşahidə olunub və bunun nəticəsində bazarın həcmi ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 2,4 dəfə artaraq 4 milyard manata çatıb. Dövr ərzində şirkətlərin kapital bazarları vasitəsilə maliyyələşmə meyillərinin artması qiymətli kağızlar bazarında ilkin bazar əməliyyatlarının sayının 3,1 dəfə, həcminin isə 68% artaraq 326,3 milyon manat təşkil etməsinə səbəb olmuşdur.

Bununla yanaşı, qiymətli kağızların təkrar bazar ticarətində əhəmiyyətli canlanma müşahidə olunub. Qiymətli kağızlar bazarının təkrar bazar ticarəti üzrə əqdlərinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,2%, həcmi isə 2,5 dəfə artaraq 3,7 milyard manat təşkil edib.

İlin ilk rübü ərzində özəl və dövlət şirkətlərinin korporativ qiymətli kağızlar bazarından maliyyələşməsi, eləcə də korporativ alətlərin təkrar ticarətinin artması nəticəsində korporativ qiymətli kağızlar bazarında həm əqdlərin sayında, həm də əməliyyatların həcmində yüksək templi artım olub. Əqdlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 22%, həcmi isə 3,9 dəfə artaraq 564,2 milyon manat təşkil edib və bazarın bu seqmentində orta günlük ticarətin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 dəfə artaraq 10,8 milyon manata çatıb.

2014-cü ilin ilk 3 ayı ərzində kommersiya banklarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində ticarətin həcminə müsbət təsir göstərmişdir. Bankların səhm bazarından maliyyələşməsinin aktivləşməsi səhmlərin ilkin bazarının ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,1 dəfə artaraq 228,0 milyon manat, bütövlükdə səhm bazarının həcminin isə 2,6 dəfə artaraq 235,3 milyon manat təşkil etməsi ilə nəticələnmişdir.

2014-cü ilin ilk 3 ayı ərzində korporativ istiqrazlar bazarı vasitəsilə cəlb edilmiş vəsaitlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 30%, təkrar bazar əməliyyatlarının həcminin 11,8 dəfə artması nəticəsində korporativ istiqrazlar bazarının həcmi 6,1 dəfə artaraq 328,9 milyon manat təşkil edib. İlk rüb üzrə korporativ istiqrazlar bazarının orta gündəlik ticarət həcmi 6,3 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6, 3 dəfə çoxdur. Korporativ istiqrazlar bazarının ən likvid aləti olan AİF-in istiqrazlarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 dəfə artaraq 288,6 milyon manat olub.

Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi ilə əlaqədar dövlət qeydiyyatına alınmış ipoteka kağızlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1% artaraq 664-ə çatıb. İlin ilk üç ayı ərzində 7,6 milyon manat məbləğində 35 veksel buraxılışı dövlət qeydiyyatına alınıb. Bu, ötən ilin göstəricisindən məbləğ üzrə 2,7 dəfə çoxdur.

**AYTƏN**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Hörmətli oxucular, qəzetin əvvəlki saylarında dərc olunan izahlarda qeyd edildi ki, mühasib hazırladığı sınaq balansı əsasında ilk olaraq mənfəət və zərər haqqında hesabatı, sonra kapitalda dəyişikliklər haqqında hesabatı, daha sonra isə mühasibat balansını tərtib edir.

Mühasibat balansı hazırlandıqdan sonra bunun davamı olaraq pul vəsaitlərinin hərəkəti haqqında hesabat hazırlanır. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ilkin hazırlanmış sınaq balansının, mənfəət və zərər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın, mühasibat balansının və ehtiyac yarandığı halda, baş kitabın göstəriciləri əsasında tərtib olunur.

Bu halda bizim misal üzrə obyektin pul vəsaitlərinin hərəkəti haqqında hesabatı aşağıdakı kimi olacaqdır (hesabatın «qeydlər» hissəsinin göstəriciləri qəzetin gələcək saylarında izahlı şəkildə veriləcəkdir, 31.12.2013-cü il tarixinə məlumatlar isə bizim misalda şərti olaraq göstərilmir):

| Göstəricilər | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| I. Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 37376 | |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | | |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | | |
| fövqəladə gəlirlər və xərclər<br>mənfəət vergisi üzrə xərclər | | 9344 | |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | 22500 | |
| investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| ehtiyatların (artması) azalması<br>əməliyyat debitor borcları və gələcək dövrlərin xərclərinin azalması (artması) | | (111650)<br>(63400) | |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | | 132610 | |
| əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | | |
| ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **26780** | |
| II. İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti | | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları<br>Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları<br>Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları | | (75000) | |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları<br>Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları<br>Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Dividentlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları<br>**İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(75000)** | |
| III. Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 30000 | |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | 80000 | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları<br>Maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Faizlər şəklindəpul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar<br>**Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | | **110000** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **61780** | |

**Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti**

| | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | | 27000 | |
| İl ərzində xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği | | 88780 | |

# «Əlaqə mərkəzləri» mövzusunda seminar

*May ayının 14-dən 16-dək Litvanın paytaxtı Vilnüs şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən keçirilmiş seminarda vergi administrasiyalarında əlaqə mərkəzlərinin inkişafı, tətbiq edilən yeniliklər və gələcəkdə nəzərdə tutulan layihələr haqqında təqdimatlar olmuşdur.*

Tədbirdə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin nümayəndələri Zaur Quliyev və Məhəmməd Yunusov nazirliyin internet səhifələri, sosial şəbəkələr, xidmət mərkəzləri barədə məlumat vermiş, Çağrı Mərkəzi və vergi ödəyicilərinə xidmət mərkəzləri haqqında təqdimatla çıxış edərək, Çağrı Mərkəzinin inkişaf mərhələləri və əldə etdiyi nailiyyətlər, göstərdiyi xidmətlər, mərkəzin idarə edilməsi və əsas fəaliyyət göstəriciləri, vergi ödəyicilərinə xidmət mərkəzlərinin üstünlükləri, vətəndaş məmnunluğunun və keyfiyyətin dəyərləndirilməsi prosedur, eləcə də həyata keçirilməsi planlaşdırılan layihələr barədə məlumat verilmişdir.

beynəlxalq panoram

# Misirdə turistlərdən vergi tutulacaq

*Hökumət iyunun 1-dən ölkəyə gələn turistlərdən «inkişaf vergisi» toplamaq qərarına gəlmişdir. Bu addım hazırda Misir turizminin inkişaf tempinin aşağı düşməsi ilə bağlıdır. Yarım il ərzində qüvvədə olacaq verginin əsas hədəfi bu sektordakı durğunluğun aradan qaldırılmasıdır.*

Turizm nazirinin iqtisadi məsələlər üzrə müşaviri Adalı Raqabın sözlərinə görə, İskəndəriyyə, Cənubi Sinay, Xurqada, Lüksor və Asuan şəhərlərinə gələn hər bir turist 7 dollar ödəməli olacaq. Qırmızı dənizdə yerləşən Marsa-əl-Alama gələn reyslərin sərnişinləri isə vergidən azad ediləcək.

Qeyd edək ki, 2013-ci ildə Misirdə ölkəyə gələn turistlərə xidmət göstərilməsindən gəlirlər 2012-ci illə müqayisədə 41% azalmışdır: 2012-ci ildə qazanılan 10 milyard dollarla müqayisədə yalnız 5,9 milyard dollar əldə edilmişdir. Cari ilin birinci rübündə turizm sahəsinin gəlirləri təxminən 1,3 mlrd. dollar, yəni 2013-cü ilin yanvar-mart ayları ilə müqayisədə 41% az olmuşdur.

2013-cü ilin iyul-sentyabrında turistlərin Misir mehmanxanalarında gecələdiyi günlərin sayı 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfədən çox (-57%) azalmışdır. Bu ölkənin orta statistik qonağının hədiyyə dükanlarında, ekskursiya bürolarında və mağazalarda xərclədiyi məbləğ də nəzərəçarpan dərəcədə azalmışdır.



# Birləşmiş Krallıqda vergidən yayınanların adları dərc edilib

Vergidən yayınmaya qarşı mübarizə və əmələtmə səviyyəsinin artırılması tədbirlərindən biri kimi Ülyahəzrətin Gəlir və Gömrük orqanı vergidən yayınan vergi ödəyicilərinin son siyahısını dərc etmişdir. Bu tədbir mütəmadi xarakter daşıyır və hər rüb üçün bu siyahı yenilənir. Siyahıda 15 vergi ödəyicisinin adı yer almışdır. Həmin vergi ödəyicilərinin dövlətə borcu ən azı 25 min funt-sterlinq təşkil edir. Vergidən yayınmaya görə tətbiq edilmiş cərimələr isə 10 mindən 2 milyon funt-sterlinqə qədərdir. Vergi orqanı bu cür tədbirlərə əl atmaqla vergidən yayınmağa cəhd edən digər vergi ödəyicilərini çəkindirməyə ümid edir.

# Portuqaliyada hesab-faktura lotereyası keçiriləcək

***Ölkənin Vergi və Gömrük orqanı mal-xidmət alışı zamanı hesab-faktura tələb edən istehlakçıları stimullaşdırmaq üçün lotereya keçirməyi nəzərdə tutur.***

Bu addım ölkədə saxta hesab-fakturaların verilməsi, kölgə iqtisadiyyatı və vergidən yayınma hallarının qarşısını almaqda vətəndaşların rolunun artırılmasını nəzərdə tutur. Lotereyadakı mükafatın cəmi məbləğinin hər il qanunla müəyyən ediləcəyi gözlənilir.

- Fəaliyyət sahəsindən asılı olmayaraq 1 yanvar 2014-cü ildən sonra verilmiş hər növ hesab-fakturalar lotereyada iştirak edəcək;
- Sahibkarlıq məqsədilə istifadə olunan mal-xidmətlərə görə alınan hesab-fakturaların lotereyada iştirakı nəzərdə tutulmur;
- Hər bir istehlakçı vergi administrasiyasının rəsmi internet səhifəsi (www.portaldasfinancas.gov.pt) vasitəsilə lotereyada iştirak edə biləcək;
- İstehlakçıların daxil etdikləri məlumatların tam məxfiliyinin qorunması təmin ediləcək.

Xarici ölkələrin təcrübəsi:

# Rusiyada vergi və rüsumlar üzrə məsləhətçi institutunun perspektivləri

*Tezliklə Rusiya Federasiyasında yeni, özəl vergi məsləhətçisi peşəsi meydana gələ bilər. Bu barədə «Kommersant» qəzetində maraqlı şərh verilmişdir.*

Mayın 2-də Rusiyada Vergi Məcəlləsinə edilən düzəlişlərin qüvvəyə minməsi gəlirləri barədə dövlət qarşısında şəxsən hesabat verməyə alışmamış vətəndaşlar üçün ciddi sınağa çevrilə bilər. Hazırda ölkədə qüvvədə olan vergi qanunvericiliyinə görə, bu və ya digər vergini (nəqliyyat, torpaq və əmlak vergisi) ödəmək zərurəti barədə yazılı bildiriş alınmadığı halda, mülkiyyətində avtomobil, mənzil, bağ evi olan vergi ödəyicisi məlumatı vergi orqanına özü göndərməlidir. Əks halda, vergi ödəyicisinə cərimə tətbiq edilə bilər.

Rusiya Federal Vergi Xidməti (FVX) rəhbərinin müavini Dmitri Qriqorenkonun sözlərinə görə, vergi qanunvericiliyi, sadəcə olaraq, RF Konstitusiyasının 57-ci maddəsinə (vətəndaşların vergi və rüsumları ödəməsi vəzifəsi) uyğunlaşdırılmışdır və texniki baxımdan heç nə dəyişməmişdir. İstənilən halda verginin hesablanması və bildirişin göndərilməsi dövlətin vəzifəsidir. O bildirmişdir ki, əmlak vergilərinin mövcud sistemi dövlət tərəfindən hesablanmış vergilər barədə vətəndaşa bildiriş göndərilməsini nəzərdə tutur. Lakin bəzi hallarda vətəndaşların özü tərəfindən hesablanan və ödənilən fiziki şəxslərin gəlir vergisi bəyannaməsi burada istisna təşkil edir.

Dövlət məmurlarının fikrincə, Rusiyada vergi sistemi getdikcə mürəkkəbləşir və özəl vergi məsləhətçiləri institutunun yaradılması zərurətə çevrilir. FVX-də hesab edirlər ki, fiziki şəxslərin öz gəlirləri haqqında təqdim etdiyi bəyannamələrin çoxu indi də kənar şəxslərin köməyi ilə tərtib olunur. Amma bu zaman həmin şəxslərin kimliyi çox hallarda naməlumdur və vergi ödəyicisinə göstərilən xidmətin keyfiyyətinə dair heç bir zəmanət verilmir.

Hazırda Rusiyada vergi məsləhətçiləri bazarı kifayət qədər rəngarəngdir. Bunlar, əsasən, Rusiyada yerli və beynəlxalq auditor, hüquq və konsaltinq şirkətləri, habelə iri şirkətlərin ştatında olan mühasiblərdir. Aydındır ki, onlar fiziki şəxslərə bəyannamələri doldurmaqda kömək göstərməyə maraqlı deyillər. Fərdi sahibkar qismində fəaliyyət göstərən məsləhətçilər isə, əsasən, Vergi Məsləhətçiləri Palatasında birləşmişlər (10 min nəfərə yaxın üzv). Palata mütəxəssislərinin xidmətləri barədə məlumatları internetdə asanlıqla tapmaq olar. Xidmətlərin qiyməti təqribən 3 min rubldur (təxminən 75 manat).

Vergi məsləhətçiliyi bazarını qaydaya salmaqla FVX vergi qanunvericiliyinə riayət olunması üzərində nəzarəti gücləndirmək niyyətindədir. «Vergi məsləhətçiliyi haqqında» qanun layihəsinin müəllifləri (Rusiya Vergi Ödəyiciləri İttifaqı) vergidən yayınmaq səyləri üzərində düşünməyən mütəxəssisləri cəlb etmək üçün bazarı «özünü tənzimləyən təşkilat» vasitəsilə tənzimləməyi təklif edirlər. Yəni məsləhətçilərin özləri peşələrinin təmizliyinə nəzarət etməli, səhvə yol verdikdə isə kompensasiya fondu hesabına maliyyə cəhətdən məsuliyyət daşımalıdırlar. Hazırda Niderlandda 2, Böyük Britaniyada isə ən azı 3 belə həmkarlar ittifaqı var.

FVX rəhbəri M.Mişustinin sözlərinə görə, vergi məsləhətçilərinin xidmətlərinin qiyməti 2 min rubla (50 manata) endirmək mümkündür. Buna indi həcmi 10 milyard rubl (248 milyon manat) olan bazarı genişləndirmək hesabına nail olmaq mümkündür. Müqayisə üçün: ABŞ-da vergiləri ödəmək vətəndaşların öz işidir və 2012-ci ildə vergi məsləhətçiliyinin gəlirləri 6 milyard dollar, bütün növ bəyannamələrin doldurulması xidmətlərinin ümumi dəyəri təqribən 100-150 milyard dollar həcmində qiymətləndirilir. Amerikada bu peşə ilə 1,2 milyon adamın məşğul olması təəccüblü görünməməlidir: onların sayı hüquq-mühafizə orqanlarında çalışanların və yanğınsöndürənlərin sayından çoxdur.

Ekspertlər hesab edirlər ki, Rusiyada vergi məsləhətçilərinin sayı vergi hesablamaları sisteminin inkişaf səviyyəsindən birbaşa asılıdır. ABŞ-da bu sistem şaxələnmişdir, müəyyən ictimai sərvətlərə görə ödəniş (məsələn, uşağın xüsusi məktəbə keçirilməsi xərclərinin ödənilməsi) kimi işləsə də, Rusiyada hələlik primitiv xarakter daşıyır (mənzil alınması, təhsil haqqı, dərman alınması və s. tələbatlar üzrə xərclərin əvəzinin ödənilməsi). Yeri gəlmişkən, ABŞ-da vergi bəyannamələri ilə iş aparan mütəxəssislər (tax return preparers) daha ciddi məsələlərlə məşğul olan vergi məsləhətçilərindən (tax advisors) fərqləndirilir. 2011-ci ildən başlayaraq onlar dövlət imtahanı verməli və fərdi nömrə (PTIN - Practitioner Tax Identification Number) almalıdırlar. Mahiyyətcə bu, FVX-də ehtiyatla yanaşılan lisenziyalaşdırmadır.

Rusiyada vergi məsləhətçilərinin harada və necə hazırlanacağı hələlik aydın deyil. Qanun layihəsinin müəllifləri sadələşdirilmiş prosedur üzrə vergi məsləhətçisi kimi fəaliyyət göstərmək ehtimalı olan şəxslərin böyük siyahısını tərtib etmişlər. Bu siyahıya münsiflər məhkəməsi hakiminin köməkçisi, vəkil, dövlət qulluqçularının bir qismi daxildir. Amma bu şəxslərin bilik ehtiyatı tamamilə müxtəlifdir.

Səhvlər müştərinin özündən başqa heç kimi maraqlandırmamalıdır. Məsləhətçi yalnız tövsiyə verir və müştərisinin seçiminə görə cavabdeh deyil. Özünü tənzimləyən təşkilat mexanizminin alternativi vergi məsləhətçisinin məsuliyyətinin sığortalanması ola bilər. Hazırda bu təcrübə bir sıra ölkələrdə uğurla tətbiq edilir.

Gözlənilir ki, Rusiyada vergi sistemi daha mürəkkəb hesablamalara və fiziki şəxslərin gəlirlərindən vergi tutulmasının proqressiv (mütərəqqi) şkalası tətbiq olunduqda vergi məsləhətçilərinə tələbat daha da artacaq.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Qadınlar üçün dodaq boyası; 2.Müəyyən sözlərin başlanğıc hissələrindən, yaxud həmin sözlərin ilk hərflərindən düzəldilmiş söz *(abbreviaturanın forması)*; 3.Bölükdən böyük, alaydan kiçik hərbi birləşmə; 4.Yapon ədəbiyyatında döyüş sənəti; 5.Ritm-ənd-blüz üslubunda oxuyan məşhur amerikalı müğənni (1944-2003). Zənci olsa da özünə «White» - «ağ» ləqəbi götürmüşdü; 6.«Bizim Cəbiş müəllim» filmində iştirak edən Azərbaycan aktrisasının adı; 9.ABŞ-ın xırda pul vahidi; 13.«Katyuşa» sisteminin bazasında yaradılmış reaktiv atəş sistemi; 15.Beş nəfərdən ibarət ansambl; 16.Kimyəvi element (qaz); 17.Cənubi Afrikada dövlət; 18.Görkəmli Azərbaycan bəstəkarının adı. Simfonik muğam janrında «Şur», «Kürdovşarı» və «Gülüstan Bayatı-Şiraz» əsərlərinin, eləcə də «Sevil» operasının müəllifi; 20.Ritorika termini. Yunan dilindən tərcümədə «hiss», «emissiya» mənasını verir; 21.Təyyarə və helikopter üçün nəzərdə tutulmuş qapalı tipli texniki xidmət stansiyası və dayanacaq.

**Soldan sağa:**

1.Ali təhsil ocaqlarında tədrisin praktik forması; 5.Rəqəm; 7.Ötən əsrin əvvəllərində məşhurlaşmış siqaret brendi; 8.Qərbi Avropada zadəgan titulu; 10.Türklərin populyarlaşdırdığı fast-fud yeməyi; 11.Təlimin forması; 12.Yunan əlifbasında 24-cü hərf; 14.Əxlaq, ənənə mənalarını verən fəlsəfi termin; 19.Ən zil müğənni səsi; 21.İttiham olunan şəxsin cinayət əməlində iştirak olmadığını sübut edən anlayış, hüquqi termin; 22.Karbohidrogenlərin və digər üzvi birləşmələrin mürəkkəb qarışığından ibarət spesifik iyə malik yanar maye; 23.Cinayətkar dəstənin üzvü. Bu termin, əsasən, ABŞ, İtaliya, Meksika və digər dövlətlərin cinayət qruplaşmalarına və onların üzvlərinə deyilir; 24.Fransada şəhər; 25.Xronoloji cərgədə ən vacib, birinci, üstünlüyə malik addım, seçim, əməl.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Trafik; 2.Avokado; 3.Sətir; 4.Exolot; 5.Bordo; 6.Triada; 9.Esse; 13.Düyü; 15.Beysbol; 16.Figani; 17.Əliağa *(Ağayev)*; 18.Matros; 20.Manna; 21.Xəzri.
**Soldan sağa:** 1.Transfert; 5.Bit; 7.Apostrof; 8.Arki; 10.IMAIR; 11.Oksford; 12.Honda; 14.Tembr; 19.İsmayıl *(Şıxlı)*; 21.Xoyla; 22.«Ayna»; 23.Zanzibar; 24.İsa; 25.Qladiolus.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

idman

# Dördqat dünya çempionu – vergi orqanı əməkdaşı

*Bu ilin 6-11 may tarixlərində Yunanıstanın Santorini şəhərində 50-dən çox ölkənin kiqboksinq ustalarının iştirakı etdiyi dünya çempionatı keçirilmişdir.*




Çempionatda 70 kq çəki dərəcəsində ölkəmizi Vergilər Nazirliyinin əməkdaşı Azər Aslanov təmsil etmişdir. İlk görüşlərini inamlı qələbə ilə başa çatdıran idmançımız həlledici döyüşlərdə də təcrübəli rəqiblərinə heç bir şans verməmiş, fəxri kürsünün ən yüksək pilləsində üçrəngli bayrağımızı dalğalandırmağa nail olmuşdur.

Qeyd edək ki, bu, Azər Aslanovun idmançı karyerasında ilk böyük nailiyyəti deyil. Əvvəllər Şərq döyüş növü üzrə ikiqat dünya çempionu titulunu qazanmış, həmçinin Avrasiya Kubokuna sahib olmuş idmançımız sonradan əsas fəaliyyətini kiqboksinqə həsr etmişdir. Artıq bu idman növü üzrə dördqat dünya çempionu olan Azər yalnız bir dəfə bürünc medalla kifayətlənmişdir.

Xatırlatmaq yerinə düşər ki, Azər Aslanov tanınmış idmançı olmaqla yanaşı, həm də vergi orqanı əməkdaşıdır. Hazırda 12 saylı Ərazi Vergilər Departamentində baş dövlət kiçik vergi xidməti müşaviri kimi fəaliyyət göstərən gənc həmkarımız bu ilin sentyabrında İspaniyada keçiriləcək Avropa çempionatında da birinciliyi əldə etmək niyyətindədir. Daim qarşısına qoyduğu məqsədə nail olmağa can atan A.Aslanova gələcək idman karyerasında, həmçinin vergi əməkdaşı kimi fəaliyyətində uğurlar arzulayırıq.

# Azərbaycan velosipedçisi «Dağ kralı»dır

*İrlandiyada keçirilən Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2.2 kateqoriyalı «An Post Ras» veloyürüşü başa çatıb. 36 komandanın iştirak etdiyi yarışda Azərbaycanı «Synergy Baku» komandasının üzvləri - Connor McConvey, Daniel Klemme, Markus Eybeger, Yan Sokol və Kristof Şvayzer təmsil ediblər.*

Beynəlxalq veloturun 3-cü mərhələsində komandamızın üzvü Yan Sokol 154.2 km-lik məsafəni 3 saat 35 dəqiqə 1 saniyəyə keçərək mərhələ qalibi olub. Digər velosipedçilərimiz isə 154 iştirakçı arasında finişi Sokoldan 16 saniyə gec keçən pelotonun içərisində olublar.

Yarışın 6-cı mərhələsi «Synergy Baku» üçün daha bir qələbə ilə yadda qalıb. Komandamızın üzvü Markus Eybeger 167.9 km-lik məsafəni 4 saat 15 dəqiqə 11 saniyəyə keçməklə 129 iştirakçı arasında birinci olub.

147.7 km-lik 7-ci mərhələdə də M.Eybeger finiş xəttini birinci keçərək ən yaxşı dağ velosipedçisinə verilən köynəyi əldə etməyi bacarıb. İdmançımız 8-ci mərhələdə bu üstünlüyünü qoruya bilib və 97 xalla «An Post Ras» veloyürüşünün «Dağ kralı» adına layiq görülüb.

Yarışın 134.3 km-lik sonuncu mərhələsində «Synergy Baku»nun üzvü Daniel Klemme finişi liderdən 38 saniyə gec keçməklə 2-ci yeri tutub - 2 saat 58 dəqiqə 45 saniyə. Eyni nəticəyə imza atan K.Şvayzer isə 16-cı olub. Bu, ona yekun sıralanmada 5-ci pillədəki yerini qorumağa imkan verib.

Beləliklə, təmsilçilərimiz 8 mərhələdən ibarət mötəbər veloyürüşün iki mərhələsində qalib gəlməklə və bütövlükdə «Dağ kralı» adını əldə etməklə yarışı başa vurublar.




# Güləşçilərimiz beynəlxalq turnirdə

*Sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan yığma komandası Mahaçqalada beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş 45-ci Beynəlxalq turnirdə iştirak etmişdir.*

Turnirin ilk günündə 57, 65, 74 və 97 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşmişdir. Olimpiya və dünya çempionu Şərif Şərifov (97 kq) finaladək maneəsiz irəliləmişdir. Ardıcıl olaraq Atila Zmik (Macarıstan), Pavel Oleynik (Ukrayna) və Marat İbrahimov (Rusiya) üzərində tam üstünlüklə qələbə qazanan güləşçimiz finalda Rusiya təmsilçisi Yuri Belonovskiy ilə gərgin keçən görüşdə uduzaraq gümüş medalla kifayətlənmişdir.

Turnirin ikinci günündə 125 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Əli İsayev bütün rəqiblərindən üstün olmuş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Əhmədnəbi Qvarzatilov (61 kq) isə Rusiya güləşçisi Bulat Batoevi məğlub edərək bürünc medal qazanmışdır.

mozaika

## Azərbaycan filmləri Kann Beynəlxalq Kinofestivalında

*Dünyanın ən böyük incəsənət bayramlarından biri olan 67-ci Kann Beynəlxalq Kinofestivalı başa çatmışdır. Festivalın «Rejissor həftəliyi» proqramına Azərbaycan kinorejissorlarının hazırladığı «Torn» qısametrajlı filmi də daxil edilmişdi. Rejissorlar - Elmar İmanovun və Engin Kundağın birgə işi olan filmdə baş rolun ifaçıları Rasim Cəfər, Zülfiyyə Qurbanova və Mirmövsüm Mirzəzadədir.*

«Rejissor həftəliyi» - Kann kino festivalının əsası 1969-cu ildə qoyulan ən böyük bölmələrindən biridir. «Həftəlik» yarandığı gündən özünün sərbəst formatı ilə seçilir. Yeni fəaliyyətə başlayan rejissorların Kann kino festivalının rəsmi hissəsində yer alması böyük uğur kimi qiymətləndirilir.

Qeyd edək ki, dünyanın ən mötəbər kino tədbirində artıq dördüncü ildir ki, Azərbaycan pavilyonu fəaliyyət göstərir. Mayın 25-dək davam edən 67-ci Beynəlxalq Kann kinofestivalında milli filmlərimizin nümayiş olunduğu pavilyonda xarici kino adamları - prodüserlər, rejissorlar, aktyorlar və digərləri ilə görüşlər keçirilib, birgə layihələr müzakirə olunub. Ölkəmizin turizm imkanlarını təbliğ edən çap və video materiallar ziyarətçilərə nümayiş etdirilib.

Bundan əlavə, «Qısa filmlər guşəsi» adlı sərbəst proqramda da Azərbaycan bir neçə qısametrajlı filmlə təmsil olunub. Builki festivalda ölkəmizdən dövlət və bir sıra müstəqil kino şirkətlərini təmsil edən 20-dən artıq kinomatoqrafçı iştirak edib.



maraqlı

## «3D» printerində yaradılmış bədən orqanı insana köçürülmüşdür

«Sky News» telekanalının məlumatına görə, böyük britaniyalı həkimlər «3D» printerinin köməyi ilə yaradılmış çanaq-bud oynağını 71 yaşlı qadına implantasiya edərək ona yenidən yerimək imkanı vermişlər.

Köçürülmə əməliyyatı Böyük Britaniyanın cənubunda Sauthempton xəstəxanasında həyata keçirilmişdir. Cərrah Duqlas Danlopun sözlərinə görə, oynağın fiksajı üçün pasiyentin sümük beyninin hüceyrələrindən hazırlanmış yapışqandan istifadə olunmuşdur.

Titan protez quraşdırılanadək britaniyalı qadın altı uğursuz əməliyyat keçirmişdir.



## SMS yazmaq üzrə dünya rekordu

*Braziliyanın 16 yaşlı sakini Marsel Fernandes SMS məlumat yazmaq üzrə dünya rekordu qazanmış və yeniyetmənin bu nailiyyəti Ginnesin «Rekordlar kitabı»na daxil edilmişdir.*

Ötən ay Nyu-Yorkda keçirilmiş yarışın iştirakçıları telefonda ingilis dilində aşağıdakı frazanı yığmalı idilər: «Serrasalmus və Pygocentrus növündən olan iti-dişli piranalar dünyada şirin suda yaşayan ən yırtıcı balıqlardır. Lakin əslində onlar nadir hallarda insanlara hücum edirlər» («The razor-toothed piranhas of the genera Serrasalmus and Pygocentrus are the most ferocious freshwater fish in the world. In reality they seldom attack a human»). M.Fernandes tapşırığın öhdəsindən 18,19 saniyəyə gəlmişdir. Əvvəlki rekord 18,44 saniyə olmuşdur.



Yeniyetmə bildirmişdir ki, məlumat yığmaq vərdişini 2009-cu ildə stolüstü kompüterini sındırdıqdan sonra mükəmməl şəkildə inkişaf etdirmişdir. Yeni kompüter almağa pulu olmayan yeniyetmə yalnız smartfondan istifadə edir.

Braziliya kollecində fizika ixtisası alan M.Fernandes qeyd etmişdir ki, ümumiyyətlə, SMS göndərməyin aludəçisi deyil.

sağlam həyat tərzi

## İnsan immuniteti idarə etməyə qadirdir

*İnsan xüsusi hərəkətlərin köməyi ilə öz immunitetini idarə edə bilər. Redbaud Universiteti Tibb Mərkəzinin mütəxəssisləri Vim Hof fenomenini öyrənməklə belə qənaətə gəlmişlər.*



Hollandiyalı V.Hof çox aşağı temperatura davam gətirmək qabiliyyəti sayəsində Ginnesin «Rekordlar kitabı»na düşmüşdür. O, özünün işləyib hazırladığı tənəffüs və meditativ hərəkətlər metodikası sayəsində şaxtaya davamlı olmuşdur.

Matthiys Koksun rəhbərliyi altında alimlər könüllülərdən ibarət iki qrupun iştirakı ilə eksperiment aparmışlar. Qruplardan biri V.Hofun metodu ilə məşq etmiş, digəri isə adi həyat tərzi keçirmişdir. Eksperimentdən sonra «soyuqdəymə testi» keçirilmişdir. Test göstərmişdir ki, birinci qrupun iştirakçılarının soyuqdəymə xəstəliklərinə tutulma halları xeyli aşağıdır. Onların qanında interleykin zülalının miqdarı yüksəlmiş (bu zülal soyuqlama proseslərinə müqavimət göstərir), iltihab indikatoru olan zülalların miqdarı isə aşağı düşmüşdür.

### Müdriklər deyib ki...

***«Hərəkətsizlik şübhə və qorxu, hərəkət isə inam və cəsarət yetişdirir».***

*Deyl Karnegi (1888-1955)*

